EVDƏ QAL, SAĞLAM QAL!

“Dövlət başçısı tərəfindən verilən qərarlar insanların firavanlığını təmin edir”



Bax 4

Azərbaycanın Xarici İşlər naziri ilə Böyük Britaniyanın dövlət naziri arasında telefon danışığı olub



Bax 3



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 143 (6107) 21 avqust 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## İlham Əliyev: “Bu ilin sonunadək görüləcək işlər iqtisadi canlanmanı təmin etməli, itkiləri azaltmalıdır”



Bax 2

## Hikmət Hacıyevin Ermənistanla bağlı şərhləri Bolqarıstan mətbuatında çap olunub



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı şərhləri Bolqarıstan mətbuatında çap olunub. Azərbaycanın Bolqarıstandakı Səfirliyindən SİA-ya verilən məlumata görə, 19 avqust 2020-ci il tarixində Bolqarıstanın aparıcı mətbuat orqanlarından biri olan “Cross” xəbər agentliyinin internet səhifəsində...

Bax 3

## Hande Harmancı: “Pandemiya ilə mübarizədə yeni dövrə daxil oluruq”




Hazırda pandemiya ilə mübarizədə yeni bir dövrə daxil oluruq. SİA-nın məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. O, qeyd edib ki, payız aylarında COVİD-19 virusuna yoluxmaların artması proqnozlaşdırılır: “Bir çox ekspertlər bu...

Bax 4

## Kürdəmir rayon İcra Hakimiyyətindəki həbslərlə bağlı təfərrüatlar açıqlandı

Qanun pozuntularının törədilməsində şübhəli bilinən Kürdəmir rayon İcra Hakimiyyətinin vəzifəli şəxslər tutulmuşlar. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, ölkəmizdə həyata keçirilən çoxşaxəli və sistemli islahatlara mane ola biləcək korrupsiya və sair neqativ hallara qarşı mübarizə tədbirləri çərçivəsində prokurorluq orqanlarının qətiyyətli və ardıcıl tədbirləri davam etdirilir. Həmin tədbirlərdən biri kimi, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə...



Bax 7

## Azərbaycandan xaricə 129 milyon dollar valyuta axıb

Cari ilin ilk yarımilliyi ərzində Azərbaycanda koronavirus pandemiyası səbəbindən tibbi vasitələrin həcmi artıb. SİA xəbər verir ki, bu artımla ölkəyə gətirilən dərman vasitələrinin idxal dəyərinin həcmi 33 faiz artıb.

Ölkədən bu məhsullara görə 129.12 mln. ABŞ dolları həcmində valyuta xaricə axıb. Bu, öncəki ilin eyni dövründə cəmi 96.95 mln. manat idi. Azərbaycana idxal...



Bax 5

## Çempionlar Liqasında “Bavariya”- PSJ dueli!

*Futbol üzrə UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinə yekun vurulub. SİA xəbər verir ki, bununla da digər finalçının adına aydınlıq gəlib.* Həlledici oyuna sonuncu vəsiqə uğrunda Almaniya “Bavariya”sı ilə Fransanın “Olimpik” (Lion) klubları üz-üzə gəlib. Portuqaliyanın paytaxtı Lissabondakı...




Bax 16

Maestro Niyazinin anadan olmasından 108 il ötür



Bax 11

Bəhruz Quliyev: “Tətbiq edilən qərarlar, tələb olunan məhdudiyyətlər anlayışla qarşılanmalıdır”



Bax 6

“Paşinyanın medal verdiyi hərbiçilər sabah onu devirməyə qalxacaqlar”



Bax 12

## Rəsmi xronika

Prezident İlham Əliyev C.F.Cəfərovun Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Ceyhun Fərrux oğlu Cəfərov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

# İlham Əliyev: “Bu ilin sonunadək görüləcək işlər iqtisadi canlanmanı təmin etməli, itkiləri azaltmalıdır”



***Prezident İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədəki yekun nitqində bir sıra mühüm və önəmli məsələlər barədə danışıb. Həmin müşavirədə dövlət başçısı diqqətə çatdırıb ki, əsas məsələ insanların sağlamlığı, onların sosial vəziyyəti və bizim iqtisadi dayanıqlılığımızdır:***

“Çünki əgər bu, olmasa, bu birinci iki vəzifəni biz icra edə bilməyəcəyik. Bizim güclü iqtisadi imkanlarımız olmasa, bütün niyyətlərimiz kağızda qalacaq. Ancaq biz istəyirik bu işləri elə görək ki, ölkə inkişaf etsin, ölkənin gələcəyi qeyri-neft sektorunun inkişafı hesabına təmin edilsin.”

Dövlətimizin başçısı vurğulayıb ki, makroiqtisadi vəziyyətin sabit qalması sevindirici amildir, inflyasiya təqribən 3 faiz ətrafındadır. Artıq məlumat verildi ki, bizdə xarici borc artmayıb. Ümumi daxili məhsula nisbətdə ola bilsin ki, artıb, çünki ümumi daxili məhsul bizdə azalır və azalacaq. Ancaq bizdə mütləq rəqəmlərdə xarici borc artmayıb və hesab edirəm ki, ilin sonuna qədər azalmalıdır.

Sahibkarlara dəstəyin bundan sonra daha da şəffaf və mütəşəkkil qaydada göstəriləcəyini qeyd edən Prezident deyib: “Sahibkarlar tərəfindən də təqdim edilən layihələr gərək real bazarı nəzərə alsın, həm daxili bazarı, həm xarici bazarı. Çünki burada da boşluqlar var. Baxmayaraq ki, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlər, eyni zamanda, metodiki tövsiyələr verilir, bəzi hallarda təqdim edilən layihələr tam təhlil edilmir. Ona görə bu məsələyə də mütləq baxmaq lazımdır.

Bizim iqtisadiyyatımız altı ayda cəmi 2,7 faiz aşağı düşüb. Burada, eyni zamanda, neftin qiymətinin aşağı düşməsi də rol oynayıb. Eyni zamanda, OPEC+ çərçivəsində götürdüyümüz öhdəliklər də öz rolunu oynadı. Çünki biz hasilatı ixtisar etdik. İndi bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10 faiz, 14 faiz, 20 faiz, ondan da çoxdur. Əlbəttə ki, bu ölkələrə baxdıqda bizdə vəziyyət daha yaxşıdır.”

Dövlətimizin başçısı deyib ki, bu ilin sonuna qədər görüləcək işlər, xüsusilə, sahibkarlıqla bağlı olan işlər, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımlar iqtisadi canlanmanı təmin etməlidir, itkiləri azaltmalıdır: “Dövlət şirkətlərində itkilər kifayət qədər böyükdür. İndi, baxın, bizim qaz itkiləri, düzdür, son vaxtlar azalıb, ancaq yenə də dözülməz həddədir. Bizim su itkiləri. Su məsələlərinin həlli ilə bağlı xüsusi müşavirə keçirmişdim, Tədbirlər Planı qəbul edilib və artıq icra olunur. Amma itkilər 40-50 faiz səviyyəsindədir. Elektrik xətlərindəki itkilər də, əlbəttə ki, bizi narahat edir”.

İtkilərlə bağlı narahatlığını ifadə edən dövlətimizin başçısı bildirib ki, bütün digər dövlət şirkətlərində vəziyyət ya buna oxşardır, ya bundan pisdir, ya da bir qədər yaxşıdır. “Amma fakt odur ki, əgər dövlət şirkətləri normal korporativ idarəetmə əsasında işləməyəcəklərsə, onda biz bu problemlərlə daim üzləşəcəyik. Bundan sonra buna dözmək olmaz”, - deyə Prezident vurğulayıb.

# ABŞ-ın “Newsmax” nəşri Ermənistanın Azərbaycana təcavüzündən yazır

***Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanovun bu ölkənin “Newsmax” mətbu orqanında Ermənistanın ölkəmizə qarşı təcavüzü və ABŞ polisinin radikal ermənilərə qarşı nifrət zəminində cinayət araşdırmasına həsr olunmuş məqaləsi dərc edilib.***

Müəllif yazır ki, iyul ayında Ermənistanın Azərbaycana növbəti hərbi təcavüzü koronavirus pandemiyasının pik dövründə və bir çox dövlətlərin öz vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinə fokuslandığı bir zamanda baş verib. Ermənistan koronavirus böhranı yaşamasına baxmayaraq, bu onu Azərbaycana qarşı dövlət sərhədi boyunca Tovuz rayonu istiqamətində hücuma başlamaqdan çəkindirməyib.

Ermənistanın hücumunun Azərbaycanın işğal olunmuş ərazilərindəki təmas xəttindən yüzlərlə mil şimalda olması son təcavüzün arxasında dayanan niyyətləri açıq şəkildə göstərir.




Həlli uzanan Ermənistan-Azərbaycan münaqişəsi böyük Avrasiya regionunda sülhə və təhlükəsizliyə əsas təhdid olaraq qalmaqdadır. Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq birlik səviyyəsində tanınmış ərazisinin 20 faizinin qanunsuz işğal olunması və etnik təmizləməyə məruz qalması bir milyon insanı məcburi köçkün etməklə ağır humanitar böhrana səbəb olub. İşğaldan 30 il sonra - bu gün məcburi köçkünlər öz evlərinə qayıda bilməyərək hələ də didərgin həyatı yaşayırlar.

Ermənistan qoşunlarının dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və çoxsaylı digər beynəlxalq sənədlərə baxmayaraq, Ermənistan beynəlxalq hüququn prinsiplərinə və Fransa, Rusiya və ABŞ-ın həmsədrliyi ilə ATƏT-in Minsk qrupunun danışıq səylərinə məhəl qoymur.

Faktiki olaraq Ermənistanın son əməlləri və bəyanatları mövcud danışıqlar formatını açıq şəkildə pozur və sülh prosesi üçün real perspektivlərə zərbə vurur.

E.Süleymanov qeyd edir ki, formal müstəqilliyinə baxmayaraq, Ermənistan qonşu ölkələrlə daimi münaqişələr və xarici asılılıq nəticəsində heç zaman tam suverenlik qazanmayıb.

Bu gün Ermənistan heç bir strateji dəyərə malik olmayıb, inteqrasiya və inkişafa doğru addımlar atmağa qadir olmayaraq keçmiş Sovet İttifaqının sonuncu qalıqlarındandır. Eləcə də Ermənistan cəmiyyəti antisemitizm, nasistlərlə əməkdaşlıq və Yaxın Şərq terrorist qruplaşmaları ilə münasibətlər kimi problemlərlə hələ də qarşılaşmaqdadır.

Emiqrasiya səviyyəsi yüksək olan Ermənistan son vaxtlar qlobal miqyasda ən qəzəbli ölkə olaraq qiymətləndirilib. Bəzi hallarda bu qəzəb ölkə sərhədləri xaricində də özünü göstərir.

Son günlərdə Los-Anceles polisi Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun qarşısında baş verən etiraz aksiyası zamanı kiçik qrup azərbaycanlılara qarşı erməni radikalları tərəfindən şiddətli hücuma görə nifrət zəminində cinayət araşdırmasına başladıb.

Xəritəyə bir baxış Ermənistanın məsuliyyətsiz militarist yanaşmasının fəsadlarının daha geniş olduğunu göstərir.

Cənubi Qafqaz bölgəsi Ermənistan, Azərbaycan və Gürcüstandan ibarət olmaqla dünyanın vacib strateji ərazilərindəndir. Məsələn, Azərbaycan dünyada Rusiya və İranla həmsərhəd olan yeganə dövlətdir, həmçinin İsrailin vacib dost və tərəfdaşıdır.

Bundan əlavə, Azərbaycan Avropa və Asiya arasında əvəzsiz bağlılıq yaradır və paytaxt Bakı şəhəri Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin başlanğıc nöqtəsidir. BTC İsrailin illik neft təchizatının 40 faizini təmin edən və vaxtilə Ceyms Bondun “Dünya yetərli deyil” filmində yer alan neft kəməridir.

Azərbaycandan başlayaraq altı ölkəni, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən Cənub Qaz Dəhlizi də öz başlanğıcını Bakının yaxınlığından götürür. Bu boru kəmərləri, eləcə də Asiyanı Avropa ilə birləşdirən dəmir yolu xətləri və NATO hava qüvvələri üçün Əfqanıstana uçuş dəhlizi Ermənistan tərəfindən hücum edilmiş ərazinin yaxınlığından keçir.

Diplomat qeyd edir ki, inkişaf və əməkdaşlığa heç bir töhfə verməyən Ermənistan bir daha qlobal əhəmiyyət daşıyan enerji infrastrukturu və regional təhlükəsizliyə təhdid yaratmaqla özünü gündəmdə saxlamağa çalışır. Ermənistan hərbi qüvvələri, fəaliyyətə başlamasına bir neçə ay qalmış Cənub Qaz Dəhlizindən 15 mil məsafədə yerləşən əraziyə hücum edir.

Ermənistan sərhəd boyunca Azərbaycan ordu hissələrini sərhəd qoşunları ilə əvəz etdiyi əraziyə hücum edib, mülki yaşayış evlərini artilleriya atəşinə tutub və nəticədə itki və zərərlərə səbəb olub.

Təmas xəttindən uzaqda dövlət sərhədi boyunca hücuma keçən Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dəstəyinə ümid edirdi. Lakin Ermənistanın münaqişənin əhatə dairəsini genişləndirmək cəhdi baş tutmadı və ədavətin kimin başlaması aydın olduğundan KTMT Ermənistanın dəstək xahişini rədd etdi.

Ermənistan rəhbərliyi ABŞ dövlət katibi Maykl Pompeonun substantiv sülh danışıqları çağırışlarına məhəl qoysa və Azərbaycanla məzmunlu danışıqlara cəlb olunsaydı, Ermənistan xalqının daha parlaq gələcəyini və bütün Cənubi Qafqaz regionunda davamlı sülhü təmin edərdi. Əksinə, Ermənistan firavanlığın və regionun təhlükəsizlik arxitekturasının vacib elementlərinə təhdid yaratmaqla özünü bir daha destruktiv qüvvə kimi göstərib.

Sonda qeyd edilir ki, beynəlxalq ictimaiyyətin nümayəndələri rəsmi Yerevana sülhün dividendlərinin zəngin olmasını və təcavüzün nəticələrinin getdikcə artmasını izah etməklə Ermənistan xalqına kömək olmalıdır.

## Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib



Avqustun 20-də Azərbaycan Respublikasının Baş Naziri, Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə şuranın videoformatda növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci ilin yeddi ayı ərzində fəaliyyətinin yekunları və fondun 2020-ci il üçün büdcəsinə ediləcək dəyişikliklər müzakirə edilib. Həmçinin iclasda yeni çağırışlar fonunda Dövlət Neft Fondunun uzunmüddətli dayanıqlılığı məsələləri də ətraflı müzakirə olunub.

Dünya bazarında neftin qiymətinin dəyişməsi, OPEC+ anlaşması üzrə hasilatın azalması və dövlət büdcəsinin dürüstləşməsi ilə əlaqədar Neft Fondundan büdcəyə əlavə transfert edilməsi Dövlət Neft Fondunun 2020-ci il üçün büdcəsinə də yenidən baxılması zərurətini yaradıb. Dövlət Neft Fondunun büdcəsinə dəyişikliyi nəzərdə tutan layihə Müşahidə Şurası tərəfindən məqsədəmüvafiq hesab olunub və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi barədə qərar qəbul edilib.

## Hikmət Hacıyevin Ermənistanla bağlı şərhləri Bolqarıstan mətbuatında çap olunub




Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı şərhləri Bolqarıstan mətbuatında çap olunub. Azərbaycanın Bolqarıstandakı Səfirliyindən SİA-ya veilən məlumata görə, 19 avqust 2020-ci il tarixində Bolqarıstanın aparıcı mətbuat orqanlarından biri olan "Cross" xəbər agentliyinin internet səhifəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı şərhləri əsasında məqalə dərc olunmuşdur.

Bolqar dilində dərc olunmuş məqalədə oxuculara H.Hacıyevin Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu işğal etməsi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə baxmayaraq, Ermənistan hələ də öz ordusunu işğal etdiyi ərazilərdən geri çəkməməsi, Ermənistanın işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyəti, o cümlədən qeyri-qanuni məskunlaşma siyasəti, 2016-cı ilin Aprel döyüşləri, Ermənistanın işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışması ilə bağlı fikirləri yer almış və ATƏT-in Minsk qrupu həmsədrlərinin və beynəlxalq ictimaiyyətin bu sənədə sərt reaksiya verməsi ilə bağlı çağırış əks olunmuşdur. Məqalənin tam mətni ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür: https://www.cross.bg/armeniya-azerbaiidzhan-okypiranite-1640451.html#.Xz06KsAzaUl

## Azərbaycanın Xarici İşlər naziri ilə Böyük Britaniyanın dövlət naziri arasında telefon danışığı olub



Avqustun 20-də Xarici İşlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerikalar üzrə dövlət naziri xanım Vendi Morton ilə telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, dövlət naziri Vendi Morton Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması münasibətilə təbrik edib.

Tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra istiqamətləri üzrə fikir mübadiləsi aparıb, qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf perspektivlərini müzakirə ediblər. Nazir Ceyhun Bayramov Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin son hərbi təxribatı barədə məlumat verib və bu təxribatın Ermənistan rəhbərliyinin münaqişənin həlli üzrə danışıqlar prosesinə əngəl törətmək məqsədi güddüyünü açıq şəkildə nümayiş etdirdiyini bildirib.

Vendi Morton, öz növbəsində, bölgədə gərginliyin aradan qaldırılmasının vacibliyini vurğulayıb. Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

## Ceyhun Bayramov Sergey Lavrovla hansı məsələləri müzakirə edəcək?



Rusiya xartici işlər naziri Sergey Lavrovun dəvəti ilə Azərbaycan xartici işlər naziri Ceyhun Bayramov avqustun 26-da Rusiyaya rəsmi səfər edəcək. SİA-nın məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Maria Zaxarova brifinqdə deyib. O qeyd edib ki, iki ölkənin xarici işlər nazirinin görüşü zaman ikitərəfli əlaqələrlə bağlı geniş-spektrli məsələlərin, o cümlədən regional və beynəlxalq gündəmin müzakirə edilməsi nəzərdə tutulur. Azərbaycan XİN rəhbərinin həmçinin Rusiya hökumətində və Federal Məclisində görüşləri planlaşdırılır.

## Azərbaycan Gürcüstanın ticarət tərəfdaşları sırasında dördüncü yerdədir




Cari ilin yanvar-iyul aylarında Gürcüstan ilə Azərbaycan arasında ticarət dövriyyəsi 508,5 milyon ABŞ dolları təşkil edib. Bu da 2019-cu ilin eyni dövrü ilə müqayisədə 15,3 faiz azdır. Bu barədə Gürcüstanın Milli Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, Gürcüstanın ticarət dövriyyəsində Azərbaycanın payı 8,4 faizə bərabər olub. Hesabat dövründə Azərbaycan Türkiyə, Rusiya və Çindən sonra Gürcüstanın dördüncü əsas ticarət tərəfdaşı olub.

Qeyd olunub ki, yanvar-iyul aylarında Gürcüstandan Azərbaycana 230,7 milyon ABŞ dolları dəyərində məhsul ixrac olunub. Gürcüstan Azərbaycandan 277,8 milyon ABŞ dolları dəyərində məhsul idxal edib.

## Sevinc Fətəliyeva: "Ermənistan bilməlidir ki, Azərbaycan torpaqların işğalı ilə heç zaman barışmayacaq"



"Ermənistan tərəfi hər zaman təxribatçı mövqeyi ilə Dağlıq Qarabağ probleminin həllini uzatmağa, status-kvonu saxlamağa çalışıb. Eyni zamanda, bu ölkənin indiki və keçmiş hakimiyyət nümayəndələri münaqişənin yaranma səbəbləri, baş verən toqquşmalar, döyüşlər barədə yanlış fikirlər səsləndirirlər". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, Ermənistanın keçmiş prezidenti Serj Sarqsyanın Aprel döyüşləri ilə bağlı açıqlamaları da bu qəbildəndir. Onun sözlərinə görə, S.Sarqsyan Azərbaycan torpaqlarının işğalında və dinc insanların qətlə yetirilməsində, Xocalı soyqrımının törədilməsində birbaşa iştirak edib: "Mətbuat konfransında onun Azərbaycanın ünvanına dedikləri yalandan başqa bir şey deyil. Məlumdur ki, məhz Ermənistanın hərbi birləşmələrində hərbi xidmətə çağırışçı və səfərbərlik ehtiyatlarının çatışmazlığı səbəbindən xarici ölkələrdən gətirilən muzdluların istifadə edilməsi praktikası geniş tətbiq olunur. Bu barədə indiyə qədər çoxsaylı faktlar açıqlanıb. Aprel döyüşləri isə Azərbaycan Ordusunun gücünü gücünü göstərdi, eyni zamanda erməni ordusunun nə qədər zəif olduğunu isbat etdi. Məhz həmin döyüşlərdən sonra o vaxt prezident postunda olan Sarqsyan Müdafiə Nazirliyinin rəhbərliyini istefaya göndərdi".

Millət vəkilinin fikrincə, əslində S.Sarqsyanın mətbuat konfransı keçirirərk özünə bəraət qazanmaq üçün cəfəng fikirlər səsləndirməsi təəccüblü görünməməlidir. Çünki həm Ermənistan həmin döyüşlərdəki məğlubiyyətinin acısını, təsirini hələ də yaşayır. Digər tərəfdən isə Ermənistanda parlament komissiyasının həmin döyüşlərdəki uğursuzluqların səbəb və səbəbkarlarını müəyyən edərək onlara ağır cəza verməк çağırışı S.Sarqsyanı belə bir addım atmağa məcbur edib. S.Sarqsyanın səsləndirdiyi yalan fikirlər yəqin ki, onun öz tərəfdaşları, erməni ictimaiyyəti qarşısında itən nüfuzunu bərpa etməyə, xüsusilə də parlament komissiyasının qəbul edəcəyi qərarlara təsir etməyə yönələn uğursuz cəhddir. Çünki indiki hakimiyyət Sarqsyan hakimiyyətində təmsil olunmuş bir sıra vəzifəli şəxsləri müxtəlif ittihamlarla həbs edib. Sarqsyanı da belə təhlükə gözlədiyindən bu cür yalanlar söyləməyə məcbur olub.

"Bütün hallarda Ermənistan tərəfi bilməlidir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç zaman barışmayacaq. Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Ordumuz, bütövlükdə xalqımız, hər bir vətəndaş vətənpərlik ruhunda köklənib. Xalqımız, dövlətimiz gec-tez öz torpaqlarını işğalçılardan azad edəcək"-deyə, deputat vurğulayıb.

## Azərbaycanda Rusiyanın sifarişi ilə yeni növ məhsul hazırlanır

Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Azertexnolayn" MMC-də yeni növ məhsulun, avtodayanacaqlarda istifadə olunan çuqun tökümü yağış barmaqlıqların istehsalına başlanılıb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata əsasən, məhsul Rusiya Federasiyasının sifarişi ilə hazırlanır.



Qeyd edək ki, "Azertexnolayn" MMC-də qabaqcıl texnologiyalar əsasında müxtəlif diametrli polad borular, yüksək təzyiqə davamlı hidrotexniki avadanlıqlar, xüsusi təyinatlı müxtəlif diametrli polietilen borular istehsal edilir. İstehsal olnan məhsullar ölkə daxilində istifadə olunmaqla yanaşı, bir sıra xarici ölkələrə də ixrac olunur.

# "Dövlət başçısı tərəfindən verilən qərarlar insanların firavanlığını təmin edir"



"Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələbinə uyğun islahatlar, icra edilən iqtisadi proqram və sərəncamlar ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib. Azərbaycan öz daxili siyasətində insan amilinə prioritet istiqamət verməklə həm iqtisadi, həm sosial və həm də siyasi proseslərdə önəmli mövqe qazanıb". Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin "Ağsu və Şamaxı rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalaması Azərbaycan vətəndaşı üçün dövlət tərəfindən bütün zəruri tədbirlərin görülməsi istiqamətində atılan növbəti addımlardan biridir: "Ötən 17 il ərzində həyata keçirilən bütün islahat və layihələrdə, bədbəxt hadisələr zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir.

Azərbaycan Prezidenti ölkə həyatının bütün sahələrini daim nəzarətdə saxlayır, vaxtaşırı bölgələrdə olur, yerlərdə qarşılaşılan mövcud problemlərin həlli üçün tədbirlər görülməsini reallaşdırır. Burada diqqətçəkən məqam, həm də odur ki, dövlət başçısıölkədə baş verən ekstremal proseslərə də hər zaman çevik münasibət bildirir, hadisə yerində olur, insanlarla görüşür, onların qayğıları, problemləri ilə dərindən maraqlanır, çətinliklərin aradan qaldırılması məqsədilə müvafiq dövlət qurumları rəhbərlərinə konkret tapşırıq və tövsiyələr verir.

2004-cü ilin yanvarında Lənkəran şəhərində yaşayış binasının uçması, 2005-ci ilin iyununda metronun "İçərişəhər" stansiyasının eskalatorunda nasazlıq yaranması, həmin ilin dekabrında təyyarə qəzası baş verməsi, 2007-ci ilin avqustunda Yasamalda hündürmərtəbəli binanın dağılması, 2010-cu ilin mayında Sabirabad və Saatlı rayonlarında Kür çayında suyun həcminin normadan xeyli artması səbəbindən ciddi fəsadlarla qarşılaşılması, 2012-ci ilin mayında respublikanın şimal-qərb bölgəsində zəlzələ zamanı dövlətimizin başçısı qeyd etdiyim hadisələr vaxtı zərərçəkənlərlə şəxsən görüşmüş, həlak olanların yaxınlarına, yaralananlara mənəvi dəstək göstərmiş, vətəndaşlara zəruri yardımlar edilməsi barədə göstərişlər vermişdir. Eyni zamanda ötən ilin fevralın 7-də baş vermiş zəlzələ nəticəsində cənab Prezidentin Şamaxı rayonuna getməsi, bölgədə baş verən zəlzələdən sonra təbii fəlakətin törətdiyi fəsadlarla yerində tanış olması, zərərçəkən vətəndaşlarla görüşləri, söhbətləri, müvafiq qurumların rəhbərlərinə verdiyi tapşırıqlar bir daha göstərdi ki, cənab İlham Əliyev xalqa əsl xidmət nümunəsi göstərərək, insanların daim yanındadır, onların problemlərinə, qayğılarına həssas münasibət bəsləyir.

Əlbəttə, bütün bunlar cənab İlham Əliyevin təkcə insanların xoş günlərində deyil, həm də çətin, ağır vəziyyətlərində yanlarında olmasının, onların kədərlərini bölüşməsinin, baş verən hadisələrin nəticələrinin tez bir zamanda aradan qaldırılmasının ifadəsidir".

*Ceyhun Rasimoğlu*

# Azərbaycanda daha 139 nəfər koronavirusa yoluxdu

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 146 yeni yoluxma faktı qeydə alınıb, 162 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Bu barədə SİA-ya Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.




# Dünyada koronavirusa yoluxanların sayı 22 milyon nəfəri ötüb

Dünyada COVID-19 infeksiyasına yoluxanların sayı 22 milyon nəfəri ötüb. AZƏRTAC pandemiyanın statistikasını aparan Worldometer saytına istinadla xəbər verir ki, avqustun 17-də dünyada koronavirusa 198 min 535 nəfər yoluxub, 4 min 289 nəfər isə dünyasını dəyişib.

Saytın məlumatına əsasən, hazırda dünyada koronavirus infeksiyasına yoluxanların sayı 22 milyon 102 min 713 nəfərə, ölənlərin sayı isə 778 min 369 nəfərə çatıb. Eyni zamanda, 14 milyon 840 min 714 nəfər COVID-19 xəstəliyindən sağalıb, müalicəsi davam edən 6 milyon 483 min 630 xəstədən 62 min 196 nəfərin vəziyyəti ağır qiymətləndirilir.

ABŞ-da COVID-19 infeksiyasına yoluxanların sayı 5 milyon 613 min 357 nəfərə çatıb. Yoluxma sayına görə ABŞ-dan sonra ikinci yeri Braziliya tutur - 3 milyon 363 min 235 nəfər. Hindistanda 2 milyon 724 min 642 nəfər, Rusiyada 932 min 493 nəfər, Cənubi Afrika Respublikasında 589 min 886 nəfər, Peruda isə 541 min 493 nəfər COVID-19 xəstəliyinə yoluxub.

ABŞ COVID-19 xəstəliyindən ölənlərin sayına görə də dünya lideridir - 173 min 778 nəfər. İlk beşliyə daxil olan Braziliyada 108 min 654, Meksikada 57 min 23, Hindistanda 52 min 153, Böyük Britaniyada isə 41 min 369 nəfər koronavirus səbəbindən həyatını itirib.

# Hande Harmancı: "Pandemiya ilə mübarizədə yeni dövrə daxil oluruq"




Hazırda pandemiya ilə mübarizədə yeni bir dövrə daxil oluruq. SİA-nın məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.

O, qeyd edib ki, payız aylarında COVİD-19 virusuna yoluxmaların artması proqnozlaşdırılır: "Bir çox ekspertlər bu fikirdədir. Ümumdünya Səhiyyə Təşkilatı yeni dönəmdə topladığı təcrübənin istifadəsini tövsiyə edir. Bundan sonra bütün ölkədə sərt karantinin tətbiqi deyil, bölgələrdə tədbirlərin gücləndirilməsini, qaydalara ciddi əməl edilməsini tövsiyə edirik. Bütün ölkələrin hansı bölgələrdə virusun daha çox yayılması ilə bağlı məlumatlar toplaması və vəziyyətin nəzarətdə saxlanılması vacibdir. Virusa yoluxan şəxsin digərlərini yoluxdurma riskinin qarşısını almaq üçün tədbirlər davam etdirilməlidir. İnsanlar virusla mübarizə ilə bağlı qaydalara ciddi əməl etməli, gigiyenik təmizliyə diqqət yetirməlidirlər. Qarşıdakı mərhələdə insanların hərəkəti sərbəst olacaq, amma bu insanlarda arxayınlıq yaratmamalıdır. Ara məsafələri gözlənilməlidir, bankomatların qarşısında dayanarkən sosial məsafəyə riayət olunmalıdır. Çünki bu virus minumum 1, maksimum 2 il davam edə bilər. Bu virusun peyvəndi tapılsa belə, həmin peyvəndin bütün insanlara vurulması üçün uzun zaman lazımdır. Buna görə də insanlar qaydalara ciddi riayət etməli, ara məsafəni qorumalıdırlar. Ümid edirəm ki, bundan sonrakı dönəmdə ölkə üzrə ciddi karantin rejimi tətbiq edilməyəcək, əvəzində hansı bölgədə bu virusun nə qədər yayıldığını araşdırmaq və bundan asılı olaraq rayonlarda lokal məhdudlaşdırma aparmaqla mübarizə tədbirləri gücləndiriləcək.

Azərbaycanda virusa yoluxma səviyyəsi rayon və bölgələr üzrə rəng sisteminə görə müəyyən edilib. Yoluxma səviyyəsi yüksək olan rayonlarda virusun qarşısını almaq üçün daha ciddi tədbirlər görülür. Azərbaycanın bu üsulla mübarizə aparması bizim tərəfimizdən müsbət qiymətləndirilib".

# Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə qəbul imtahanı keçiriləcək



Avqustun 27-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən Dövlət Sərhəd Xidməti (DSX) Xüsusi Məktəbinin V sinfinə test üsulu ilə qəbul imtahanı keçiriləcək. DİM-dən AZƏRTAC-a bildirilib ki, imtahanda iştirak etmək istəyən şagirdlər avqustun 24-ü saat 23:59-dək "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. İmtahana yalnız 2020-ci il yanvarın 9-dan martın 3-dək "Şagirdin elektron ərizəsi"ni təsdiq etmiş şagirdlər buraxılır.

Test imtahanı Azərbaycan dili, riyaziyyat fənləri üzrə Azərbaycan dilində aparılacaq. Hər fənn üzrə 30 qapalı tipli sual təqdim ediləcək. İmtahanın müddəti 90 dəqiqədir. Şagirdlər imtahana gələrkən şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini gətirməlidirlər.

Şəxsiyyət vəsiqəsində şəkli olmayan namizədlər təhsil aldıqları məktəbdən IV sinifdə təhsil alması barədə şəkilli arayış (şəkil möhürlə təsdiq edilməlidir) təqdim etməlidirlər.

Sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda namizəd imtahana buraxılmır. İmtahanların nəticəsi Dövlət Sərhəd Xidmətinə təqdim ediləcək. Yüksək nəticə göstərmiş şagirdlər DSX tərəfindən tibbi və digər yoxlamalara cəlb olunacaqlar. Bütün mərhələləri uğurla keçən və ən yüksək bal toplayan şagirdlər Xüsusi Məktəbə qəbul olunacaqlar.

# Ekspert: "Sığorta şirkətlərinin məsuliyyəti artırılmalıdır"



Ölkədə daşınmaz əmlakın icbari sığortası tətbiq edilsə də bəzi sahibkarlar mülkiyyətində və istifadəsində olan obyektləri sığorta etdirmək istəmir. Bu da sonda xoşagəlməz hadisələrlə nəticələnir. Sığorta edilməyən obyektlərdə yanğın və digər hadisələr baş verərkən həmin sahibkarlara dəymiş ziyan qarşılanmır. Bəzi sahibkarlar isə bildirirlər ki, tez-tez yanğın baş verən obyektlərin sığortalanması üçün sığorta şirkətlərinə müraciət etsələr də, həmin şirkətlər onların obyektlərini risk qrupuna aid edir və sığortalamaqdan imtina edir.

Məsələ ilə bağlı Trend-ə açıqlama verən iqtisadçı-ekspert Elşad Məmmədov bildirib ki, ölkədə neçə illərdir daşınmaz əmlakın icbari sığortası tətbiq edilsə də, sığorta bazarı tamamlanmayıb: "Bu istiqamətdə hələ böyük boşluqlar var. İlk növbədə sığorta şirkətləri və bazarda fəaliyyət göstərən sığorta müəssisələri faktiki olaraq bir çox hallarda əlavə quruma çevrilərək vəsaitlərin özlərinə çəkilməsi və mənfəətlərinin şişirdilməsi ilə məşğuldur. Buna görə də bu sahədə görüləcək işlər çoxdur. Sahibkarların da bu sahədə iradları anlaşılandır. Bugünkü şəraitdə biz görürük ki, sahibkarların mənfəətləri kəskin şəkildə azalır. Belə olan halda sığorta müəssisələri azalan mənfəəti kompensasiya etmir. Sonda ciddi problemlər yarananda, istər biznes subyektləri olsun, istərsə də fiziki şəxslərə dövlət dəstək verir. Yəni bu prosesdə sığorta şirkətləri əslində həm dövlət, həm də əhalinin yükünün azaldılması üçün fəaliyyət göstərməli, ziyanı kompensasiya etməlidir, amma bu prosesdə əksinədir. Görünən odur ki, faktiki olaraq bir çox hallarda sığorta şirkətləri bu prosesdə vasitəçilik missiyası daşıyır. Ona görə də hesab edirəm ki bu problemi aradan qaldırmaq üçün qanunvericilikdə dəyişiklik olmalıdır, sığorta şirkətlərinin məsuliyyəti artırılmalı və sığorta bazarına dövlət nəzarəti gücləndirilməlidir. Bununla bağlı təxirəsalınmaz tədbirlər görülməlidir".

# "Pandemiya bank sektoruna da təsirsiz ötüşməyib"



"Bank sektorunda artıq müasir çağırışlara uyğun həm idarəetmənin avtomatlaşdırılması, eyni zamanda, mobil bankçılıqdan daha çox istifadə olunması kimi məsələlər gündəmə gəlir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü olan deputatı Vüqar Bayramov pandemiyanın bank sektoruna olan təsirlərindən danışarkən deyib.

Onun sözlərinə görə, pandemiyanın təsir etdiyi sektorlardan biri də elə təbii ki, bank sektorudur, nəzərə alsaq ki, 20 iqtisadi sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə pandemiyanın təsirləri var idi: "Bu müddət ərzində dövlət tərəfindən həmin təsirlərin minimumlaşdırılması ilə bağlı paket reallaşdırıldı və 300 min muzdlu çalışan vətəndaşımız, eləcə də 300 minə yaxın mikro və fərdi sahibkar dövlət tərəfindən birbaşa yardımlar ala bildi. Amma nəzərə almaq lazımdır ki, pandemiya ilə əlaqədar yaranmış vəziyyət kreditlər üzrə ödənişlərdə yubanmalara səbəb olur. Pandemiya səbəbindən gəlirləri azalan vətəndaşlarımızın ödəmələrində çətinliklər yaranır. Eyni zamanda, Mərkəzi Bank tərəfindən də pandemiyanın təsir etdiyi sektorlarda fəaliyyət göstərən vətəndaşlarımız üçün sentyabrın 30-dək kreditlə ödənişlərdə cərimə faizi və dəbbə pullarının hesablanmaması və eyni zamanda, həmin şəxslərin adının qara siyahıya salınmaması Mərkəzi Bankın aprel ayında təsdiq etdiyi tədbirlər planında öz əksini tapmışdır. Bəzi kommersiya bankları tərəfindən də belə bir güzəştin edilməsi müşahidə olunur".

Millət vəkili vurğulayıb ki, bütün bu hallarda bank sektoru yalnız Azərbaycanda deyil, ümumilikdə, qlobal olaraq pandemiyanın təsirlərinə məruz qalan sektorlardan hesab olunur: "Bu sektora birbaşa təsirlər olmasa da, lakin, dolayı olaraq digər sektorlardan olan təsirlər bank fəaliyyətinə də təsir göstərir. Bu baxımdan, təbii ki, post-pandemiya dövrü üçün kommersiya banklarının artıq yeni starategiya ilə fəaliyyətlərinin genişlənməsi gözlənilir. Çünki, artıq müasir çağırışlara uyğun həm idarəetmənin avtomatlaşdırılması, eyni zamanda, mobil bankçılıqdan daha çox istifadə olunması kimi məsələlər gündəmə gəlir. Lakin, hələlik bank sektoru ilə bağlı göstəricilərə diqqət yetirsək, Azərbaycan bankları dayanıqlılığını qoruyub saxlayıb. Güman olunur ki, post-pandemiya dövrü daha qısa müddətdən sonra başlayarsa, proqnozlara görə, bu 2020-ci ilin sonu və 2021- ci ilin əvvəllərində baş verə bilər, bu halda banklar yenidən aktivliyini bərpa edə bilər. Həmçinin, yenidən aktivliyini artıra bilər".

*Nigar Məmmədova*

# "Türkiyə Yunanıstana qarşı açıq mövqe nümayiş etdirir"



"Ərdoğanın son zamanlar yürütdüyü uğurlu xarici siyasət, artan gücü digər blokları olduqca narahat edir. Hətta Fransanın Figaro nəşri ölkəsinin NATO-dakı müttəfiqi Türkiyəni "Zəhərli bir geosiyasi oyunçu" adlandırmaqdan da çəkinməyib. Ərdoğanın öz ölkəsini regionda olduqca güclü bir fiqura çevirmək yolunda atdığı ciddi addımlar təbii ki, onları ciddi şəkildə narahat edir. Bu səbəbdəndir ki, Egey dənizindəki adalar ətrafında Yunanıstan və Türkiyə arasındakı qarşıdurmaya digər bir ölkə-Fransa da müdaxilə etmək qərarına gəlib". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Hüseynova deyib.

Siyasi şərhçi bildirib ki, bu dəfə isə Şərqi Aralıq dənizində qanunsuz hərəkətlər edərək bölgədəki gərginliyi artıran Yunanıstan çarəni ABŞ-a qucaq açmaqda görüb: "Belə ki, son zamanlar Dədəağac bölgəsinə çoxlu sayda hərbi qüvvə toplayan ABŞ-ın buradakı limanı satın alması və Türkiyə boğazlarına nəzarət edəcəyi iddia edilir. Lozanna razılaşmasına görə isə bu bölgəyə Yunanıstan tərəfindən ordu yerləşdirilə bilməz. Bundan əlavə, bölgəyə bir müddət əvvəl də ABŞ-ın hərbi qüvvələr gətirdiyi, dəniz və hərbi baza qurduğu bildirilir. Yunan mətbuatında yer alan xəbərə görə, ABŞ-ın ONEX və Qara Zirvə Maliyyə Qrupu Dədəağac limanının 67 faizini, Kavaladakı Filippos B limanını satın almağı təklif edib. Burada əslində ABŞ-ın daha bir məqsədinin isə Türkiyəni nəzarətdə saxlamaq olduğu bildirilir ki, digər bir məqsəd də əslində, ABŞ-ın bu həmlədən Qaradəniz strategiyası çərçivəsində həm Rusiyaya, həm də Yunanıstanın ən böyük limanını satın alan Çinə qarşı istifadə edəcəyi düşünülür".

Politoloqun fikrinə görə, məsələ burasındadır ki, son illərdə Türkiyə sürətli şəkildə inkişaf edib: "Elə təkcə rəsmi Ankaranın Liviyanı nəzarət altına almaq istəyi eyni zamanda Liviya karbohidrogenlərinin və Afrika miqrantlarının Avropa Birliyinə axınını idarə etmək istəyi ilə birbaşa əlaqələndirilir. Bununla kifayətlənməyən Türkiyə Avropa Birliyinin üzvü olan və Şərqi Aralıq dənizində qanunsuz hərəkətlər edərək bölgədəki gərginliyi artıran Yunanıstana qarşı da açıq bir mövqe nümayiş etdirir. Şərqi Aralıq dənizinin bu hissəsinin çox zəngin olduğu deyilsə də burada isə məsələ yalnız karbohidrogenlərlə bağlı deyil. Əslində, Türkiyə 1923-cü ildə bağlanmış Lozanna Müqaviləsinin şərtlərinə yenidən baxılmasına eyham edir. Məhz bu müqaviləyə əsasən Egey dənizindəki adalar Yunanıstana verilib. Ərdoğan artıq bir neçə ildir dəfələrlə rəsmi səviyyədə bu razılaşmanın ədalətsiz olduğunu dilə gətirir".

Ş.Hüseynova vurğulayıb ki, məsələyə Yunanıstan tərəfdən baxdıqda isə əslində Yunanıstan nə ABŞ-a, nə də Qərbə tam şəkildə güvənmir: "Pentaqon isə həm Yunanıstanı, həm də Türkiyəni NATO üçün olduqca əhəmiyyətli müttəfiq hesab edir".

*Aysel Məmmədova*

# Səfir: "Azərbaycan və Pakistan hər zaman bir-birinin haqlı mövqeyini dəstəkləyib"




Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin "Rose Tv" kanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, müsahibədə Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrinə dair fikirlərini bölüşən səfir ölkə rəhbərlərinin apardığı qarşılıqlı inam və etimada əsaslanan siyasət nəticəsində münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və ilbəil möhkəmləndiyini bildirib. Azərbaycan və Pakistanın hər zaman bir-birinin haqlı mövqeyini dəstəklədiyini, Dağlıq Qarabağ münaqişəsinin həllində rəsmi İslamabadın daim ölkəmizin yanında olduğunu bildirən Əli Əlizadə deyib: "Bu il iyulun 12-16-da Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi növbəti təxribatını və təcavüzünü pisləyən ilk ölkələr sırasında Pakistanın da olub. Buna görə dost ölkənin hökumətinə və xalqına təşəkkürümü bildirirəm".

Cəbhədəki son vəziyyət haqqında məlumat verən diplomat qeyd edib ki, Ermənistanın bu təxribatı Azərbaycanın Tovuz rayonu istiqamətində törətməkdə məqsədi təkcə diqqəti ölkədəki çətin sosial-iqtisadi, eyni zamanda, pandemiya ilə bağlı yaranmış acınacaqlı vəziyyətdən yayındırmaq deyil, həmçinin Dağlıq Qarabağ regionundan uzaqda, Ermənistanla dövlət sərhədində gərginlik yaratmaqla yeni mövqelər ələ keçirmək və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da münaqişəyə cəlb etmək olub. Əli Əlizadə Ermənistanın hədəflərindən birinin həmin ərazidən keçən mühüm enerji və nəqliyyat infrastrukturunu məhv etmək və Azərbaycanın enerji resurslarının ixracına ziyan vurmaq olduğunu bildirib. Səfir Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin cəhdlərinin qarşısının qətiyyətlə alındığını və təcavüzkar Ermənistan ordusunun yerinə oturdulduğunu xatırladaraq, regionda gərginliyin artmasına xidmət edən təxribatçı hərəkətlərə görə tam məsuliyyətin rəsmi Yerevanın üzərinə düşdüyünü vurğulayıb.

Prezident İlham Əliyevin Pakistanla əlaqələrə xüsusi önəm verdiyini bildirən səfir ölkəmizin siyasi müstəvidə olduğu kimi, iqtisadi-ticari sahədə də Pakistanla əməkdaşlığının möhkəmləndirilməsinə maraqlı olduğunu qeyd edib, bu sahədə görülən işlər və potensial imkanlar haqqında məlumat verib, qarşılıqlı investisiya üçün yaxşı şəraitin olduğunu bildirib.

Ölkələrimiz arasındakı sıx münasibətlərdən söz açan Ə.Əlizadə Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 2017-ci ildən Pakistan vətəndaşları üçün sadələşdirilmiş viza sisteminin tətbiqi nəticəsində respublikamıza səfər edənlərin sayında sürətli artımın müşahidə olunduğunu deyib. Bildirib ki, iki ölkə arasında birbaşa hava reyslərinin açılması istiqamətində işlər davam edir.

Əli Əlizadə, həmçinin Kəşmir məsələsi ilə bağlı Azərbaycanın mövqeyindən, Heydər Əliyev Fondunun ölkələrimizin xalqları arasında əlaqələrin möhkəmlənməsinə verdiyi töhfələrdən, həyata keçirilən layihələrdən, pandemiya dövründə Pakistanla həmrəyliyin daha da möhkəmlənməsindən, bu ölkəyə göstərilən yardımlardan, mədəniyyət, turizm sahələrində aparılan işlərdən, Azərbaycandan keçən nəqliyyat dəhlizlərindən, ölkəmizdə reallaşdırılan islahatlardan, sahibkarlıq fəaliyyəti üçün yaradılan münbit şəraitdən, iqtisadi zonalardan, sənaye və kənd təsərrüfatı məhsulları istehsalı müəssisələrinin qurulmasından, texnoloji parklardan və digər məsələlərdən danışıb. Sonda səfir Pakistan hökumətini və xalqını bu ölkənin Müstəqillik Günü münasibətilə təbrik edib.

# Azərbaycandan xaricə 129 milyon dollar valyuta axıb



Cari ilin ilk yarımilliyi ərzində Azərbaycanda koronavirus pandemiyası səbəbindən tibbi vasitələrin həcmi artıb. SİA xəbər verir ki, bu artımla ölkəyə gətirilən dərman vasitələrinin idxal dəyərinin həcmi 33 faiz artıb.

Ölkədən bu məhsullara görə 129.12 mln. ABŞ dolları həcmində valyuta xaricə axıb. Bu, öncəki ilin eyni dövründə cəmi 96.95 mln. manat idi. Azərbaycana idxal edilən pərakəndə satış üçün formalarda və ya bağlamalarda qablaşdırılan digər dərman vasitələri sırası ilə ən çox Türkiyə, Almaniya, Rusiya Federasiyası, Fransa, İtaliya, Ukrayna, Hindistan, İsveçrə, Sloveniya, Polşa, İspaniya, Avstriya, Belarus, İrlandiya, Böyük Britaniya, Yunanıstan, Çin, Cənubi Koreya, Bolqaristan, Danimarka,Serbiya, Belçika, Latviyadan daxil olub.

# Azərbaycan və Belarus arasında ticarət dövriyyəsi 131 milyon dollar olub



Yanvar-iyul aylarında Azərbaycan və Belarus arasında ticarət dövriyyəsi 131 milyon dollar olub. Bu barədə AZƏRTAC-a Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib. Hesabat dövründə Belarusdan Azərbaycana ixracın dəyəri 64,2 milyon dollar, ölkəmizdən Belarusa isə 66,8 milyon dollar təşkil edib. Qeyd edək ki, 2019-cu ildə Azərbaycanla Belarus arasında idxal-ixrac əməliyyatlarının dəyəri 227 milyon dolları ötüb, bu da 2018-ci illə müqayisədə 23 milyon dollar çoxdur.

# Səfirimizin Meksika mətbuatında Ermənistanın son hərbi təxribatları barədə çıxışları davam edir

**_Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbovun bu ölkənin "ADR Networks" internet televiziyasının "Hoy en el mundo para ti" (Dünyada bu gün baş verənləri sənə çatdırırıq) verilişində efirə getmiş müsahibəsi və "ContraReplica" gündəlik qəzetində dərc olunmuş "Azərbaycana qarşı təcavüz davam edir" başlıqlı məqaləsində Ermənistan son hərbi təxribatı barədə məlumat verilib._**




Səfirlikdən Trend-ə verilən məlumata görə, hər iki media orqanı vasitəsilə Ermənistan silahlı qüvvələrinin 12 iyul tarixindən etibarən növbəti dəfə atəşkəs rejimini pozaraq ordumuzun iki ölkə arasındakı dövlət sərhəddinin Tovuz rayonu sahəsindəki mövqelərinə qəfil hücumlar təşkil etdiyini bildirən səfir, Ermənistan tərəfinin belə təxribatlar törətməkdə məqsədinin ilk olaraq, dünya ictimaiyyətinin diqqətini Azərbaycanın 20 faiz ərazisini işğal etməsi və bu torpaqlarda yaşayan bir milyona yaxın həmvətənimizə qarşı etnik təmizləmə aparması faktından yayındırmaq, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesini sabotaj etmək, habelə erməni xalqın diqqətini bu ölkədə mövcud olan ağır sosial-iqtisadi və siyasi vəziyyətdən yayındırmaq olduğunu bildirib.

M.Talıbov Tovuz rayonu ərazisində törədilmiş son hərbi təxribatla Ermənistan tərəfinin həmin bölgədən keçən, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilmiş və bütün regionun inkişafında, həmçinin Avropanın enerji təhlükəsizliyində müstəsna rolu olan iri miqyaslı layihələrin təhlükəsizliyini də təhdid etdiyini qeyd edib. Diplomat, həmçinin Ermənistan tərəfinin dəfələrlə Mingəçevir su anbarına zərbə endirmək barədə təhdidlər səsləndirdiyini, habelə işğal olunmuş ərazilərdə davamlı olaraq meşə yanğınları törətdiyini qeyd edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqda danışan səfir, Ermənistan tərəfinin Azərbaycanın beynəlxalq qaydada tanınmış ərazilərinin 20 faizini işğal etdiyini, bu ərazilərdə etnik təmizləmə apardığını, münaqişəyə dair BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrin bu ərazilərin dərhal və qeydsiz-şərtsiz işğalçı qüvvələrdən azad edilməsini tələb etdiyini, bu sənədlərin qəbulundan 30 ilə yaxın bir müddət keçməsinə baxmayaraq, Ermənistan tərəfinin həmin qətnamələrə məhəl qoymadığını bildirib.

Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğunun regionda sülh və təhlükəsizliyə başlıca təhdid olduğunu vurğulayan M.Talıbov, Azərbaycanın inkişaf etmiş, güclü, sivil və demokratik bir ölkə kimi öz ərazisində başqa dövlətin silahlı qüvvələrinin olmasına tamaşaçı qalmayacağını və beynəlxalq ictimaiyyətin Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarını boşaltmağı qəti şəkildə tələb etməsinin vaxtı çatdığını vurğulayıb. Azərbaycan xalqının, işğal olunmuş ərazilərdən qovulmuş insanlarımızın həm hökumətdən, həm də beynəlxalq ictimaiyyətdən doğma torpaqlarına qayıtmağı tələb etdiyini bildirib.

Azərbaycanın daim beynəlxalq hüquq və sülh mövqeyindən çıxış etdiyini, regional və beynəlxalq əməkdaşlığa can atdığını deyən diplomat, bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Qoşulmama Hərəkatının sədri qismində BMT-nin pandemiyaya qarşı mübarizə mövzusuna həsr olunmuş xüsusi sessiyasının çağırılması ilə bağlı təşəbbüsünü qeyd edərək, bu təşəbbüsün 130-dan çox ölkə tərəfindən dəstəkləndiyi halda, Ermənistanın buna qarşı çıxış etdiyini və dünya ölkələrinin pandemiya ilə mübarizə apardığı bir şəraitdə təxribatçı əməllərindən əl çəkməyərək öz təcavüzkar mahiyyətini bir daha sübuta yetirdiyini vurğulayıb.

Sonda səfir Azərbaycanın coğrafi mövqeyi, bu xüsusda, Avropa ilə Asiyanın kəsişməsində, qədim İpək yolunun üzərində yerləşməsi, tarixən neft ölkəsi kimi tanınması, müsəlman Şərqində ilk demokratik respublika yaradan və bu coğrafiyada qadınlara ilk dəfə seçki hüququ verən ölkə olması, yenidən müstəqillik əldə etdikdən sonra təşəbbüskarı olduğu qlobal əhəmiyyətli layihələrlə regionun iqtisadi və logistik xəritəsini dəyişməsi, günümüzdə müxtəlif millət və dinlərdən olan insanların sülh şəraitində birgə yaşayışına ev sahibliyi etməsi, habelə Meksika ilə ikitərəfli və çoxtərəfli formatlarda əlaqələrin inkişafı və əlverişli biznes mühiti, nəqliyyat və logistika şəbəkəsi, 300 milyonluq istehlak bazarına malik Xəzər hövzəsi və Mərkəzi Asiya regionuna çıxış imkanları sayəsində Meksika üçün cəlbedici tərəfdaş olması haqda danışıb.

## Bu gündən milli parklar ziyarətçilər üçün açılacaq



Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən aparılan yumşaldılma tədbirləri çərçivəsində sabahdan milli parkların qapıları ziyarətçilər üçün açıqdır. Bunu açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev deyib: "Milli parklar əvvəlki rejimdə, səhər saat 09:00-dan axşam 18:00-dək fəaliyyət göstərəcək. Turistlər karantin rejiminin tələblərinə əməl etməklə milli parkları ziyarət edə və qapalı məkanlar istisna olmaqla, açıq havada təbiətimizin gözəlliklərini seyr edə bilərlər. Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng landşaft komplekslərini əhatə edir"

## Bəhruz Quliyev: "Tətbiq edilən qərarlar, tələb olunan məhdudiyyətlər anlayışla qarşılanmalıdır"



**_"Azərbaycanda hər zaman dini dəyərlərə dərin hörmət bəslənilib və əbəs deyil ki, ölkəmizdə mövcud olan bu amil digər ölkələrdən fərqli olaraq daim öndə dayanıb. Lakin o da sirr deyil ki, koronavirus pandemiyasının bəşəriyyətə vurduğu zərbələrin daha ağır fəsadlara səbəb olmaması üçün nəinki Azərbaycanda, həm də dünyanın digər ölkələrində kütləvi tədbirlərin keçirilməsi, xüsusilə də, dini ayinlərin icrası kimi məsələlər təxirə salınıb". SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekseprt Bəhruz Quliyev mövzu ilə bağlı açıqlama verərkən deyib._**

Onun sözlərinə görə, məhz Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti sayəsində Azərbaycan dövləti üzərinə düşən bütün mümkün vasitələrdən maksimum istifadə edərək, yoluxma hallarının qarşısının alınması üçün münbit addımlar atdı, uğurlar əldə etdi: "Bu vəzifələrin öhdəsindən layiqincə gələn dövlətimiz bundan sonrakı dövrlərdə də fəaliyyətini davam etdirir, vətəndaşların sağlamlıqlarının müdafiəsi istiqamətində lazım olan bütün tədbirləri həyata keçirir. Belə olan halda nəzərə alarsaq ki, artıq İslam aləmində xüsusi yeri olan Məhərrəmlik ayı başlayıb və möminlər, inanclı şəxslər bu ayda müvafiq dini ayinləri icra edirlər, bu zaman pandemiya dövründə həmin ayinlərin keçirilməsi yeni fəsadlara gətirib-çıxara bilər. Həmçinin, azərbaycanlı möminlər də verilən qərarları anlayışla qarşılayır, bu qərarların ümumi insanlarımıza zərərin verilməməsi naminə irəli sürüldüyünü normal olaraq qəbul edirlər. Biz bu anlayışı müqəddəs Ramazan və Qurban bayramlarında da müşahidə etdik. İnanclılarımızın intizamlı davranışları qlobal bəlanın artmaması, ayaq açıb yerimməməsi üçün digər insanlara örnək oldu".

"Ona görə, inanırıq ki, Məhərrəmlik ayının tərkib ayinlərindən olan Aşura ilə bağlı da inanclı kəsim anlayışlı davranış nümayiş etdirəcək və karantin rejiminin tələblərinə riayət edəcəklər", qeyd edən Bəhruz Quliyev onu da bildirib ki, bir sıra xarici ölkələrdə dini ayinlərin icrasının qarşısının alınmaması sonradan çox ciddi təhlükələrə yol açdı: "Koronavirus infeksiyasının nə qədər təhlükəli epidemiya olması barədə artıq yenidən izah etməyə gərək yoxdur. Bir vaxtlar buna inanmayan adamlar da artıq hadisələrin nə qədər ciddi olduğunun fərqinə varıblar. Bu baxımdan, möminlərimiz riskə getməməyi daha dərindən anlamalı, bütövlükdə vətəndaşlarımızın təhlükəsizliyinin qorunması üçün dövlətin həmin istiqamətdəki siyasətinə dəstək göstərməlidirlər. Yəni o da dərk edilməlidir ki, əgər İslam dünyasının əsas ziyarətgahı olan Həcc, Kəbə evi ziyarətə bağlıdırsa, demək, müsəlmanlara məxsus mühüm aylarda da tətbiq edilən, tələb olunan məhdudiyyətlər anlayışla qarşılanmalıdır".

Bəhruz Quliyev eyni zamanda bildirib ki, artıq kütləvi tədbirlərin keçirilməsinin fəsadlara səbəb olmasını sübut edən bir sıra faktlar var: "Buna görə də, kütləviliyi ilə seçilən sosial məsafənin saxlanılması mümkün olmayan Aşura mərasiminin izdihamla keçirilməsi, yürüşlər təşkil olunması, məscidlərin, ziyarətgahların qarşısında toplaşmaq insanlarımız, bütövlükdə isə cəmiyyətimiz üçün böyük təhlükədir. Karantin rejiminin yenidən sərtləşdirilməməsi, məhdudiyyətlərin daha da kəskinləşdirilməməsi üçün isə, hər birimiz verilən qərarları normal qəbul etməli, koronavirusa qarşı əldə edilən uğurlara kölgə salmamaq üçün həmrəyliyimizi davam etdirməliyik".

## ÜST: "Koronavirus 2 il davam edə bilər"



Koronavirus minumum 1, maksimum 2 il davam edə bilər. Xəzər-Xəbər-in məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. Onun sözlərinə görə, bu virusun peyvəndi tapılsa belə, həmin peyvəndin bütün insanlara vurulması üçün uzun zaman lazımdır. Buna görə də insanlar qaydalara ciddi riayət etməli, ara məsafəni qorumalıdırlar: "Ümid edirəm ki, bundan sonrakı dönəmdə ölkə üzrə ciddi karantin rejimi tətbiq edilməyəcək, əvəzində hansı bölgədə bu virusun nə qədər yayıldığını araşdırmaq və bundan asılı olaraq rayonlarda lokal məhdudlaşdırma aparmaqla mübarizə tədbirləri gücləndiriləcək".

## Dağlıq Qarabağın Azərbaycanlı İcması:"Ermənistan terror və vandalizmi dövlət siyasəti səviyyəsinə qaldırıb"



"Təcavüzkar Ermənistan Azərbaycana qarşı hədə və təhdidlərini davam etdirir. Son günlər, belə bir təhdid Azərbaycanın tarixi şəhəri Gəncənin vurulacağı ilə bağlı yayılıb. Ölkəmizin işğal olunmuş ərazilərində yaradılmış cinayətkar rejim vasitəsilə səsləndirilən bu bəyanat Ermənistanın ölkəmizə qarşı təcavüzünün, nifrətinin, azərbaycanofobiyanın növbəti təzahürüdür". SİA-nın verdiyi məlumata görə, bu cümlələr Dağlıq Qarabağın Azərbaycanlı icmasının yaydığı bəyanatdandır. Daha sonra bəyanatda deyilir: Gəncə kimi qədim tarixə malik, dünya mədəni irsində xüsusi yeri olan şəhərin hədəf seçilməsi Ermənistanın insanlıq əleyhinə yönəlmiş təhlükəli siyasətindən xəbər verir. Bu bir daha onu göstərir ki, Ermənistan terror və vandalizmi dövlət siyasəti səviyyəsinə qaldırıb və bu gün də həmin xətti israrla davam etdirir.

Son günlərdə yayılmış Ermənistanın milli təhlükəsizlik strategiyası sənədində də bu öz təsdiqini tapıb. Bəşəriyyət tarixində mühüm rolu olmuş qədim sivilizasiyanın məhv olmasına sevinən Ermənistan rəhbərliyindən ayrı nəsə gözləmək mənasızdır. İşğalçı Ermənistan dağıtdığı, məhv etdiyi həyat və irsimiz üzərində də öz "rifahını" qurmağa çalışır. Bir tərəfdən Gəncənin mülki əhalisini qırğına məruz qoymaqla təhdid edən bu ölkə, digər tərəfdən işğal etdiyi ərazilərimizdə yaşayan "mülki əhalinin qorunması" üçün yeraltı sığınacaqlar tikir. Bu onu göstərir ki, Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil və ölkəmizə qarşı yeni hücumlar üçün fürsət və bəhanələr axtarır.

Biz münaqişənin danışıqlar yolu ilə həllini istəyirik və Dağlıq Qarabağın erməni icmasının azərbaycanlı icma ilə bərabər ölkəmizin ərazi bütövlüyü çərçivəsində sülh şəraitində birlikdə yaşamasını dəstəkləyirik.

# İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyi virtual forum keçirib

*Forumda pandemiya dövründə birgəyaşayışın və tolerantlığın gücləndirilməsi yolları müzakirə olunub*

***Avqustun 20-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Milli Xəbər Agentlikləri Birliyi (UNA) "Pandemiya dövründə müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri arasında birgəyaşayışın və tolerantlığın gücləndirilməsi yolları" mövzusunda virtual forum keçirib. AZƏRTAC xəbər verir ki, forumda 50-yə yaxın ölkənin milli xəbər agentliklərinin rəhbərləri və nümayəndələri, rəsmi şəxslər, diplomatlar iştirak ediblər.***




İslam Dünyası Liqasının Baş katibi Məhəmməd bin Əbdülkərim əl-İsa tədbirdə rəhbərlik ediyi təşkilatın pandemiya dövründə birgəyaşayışın və tolerantlığın gücləndirilməsi istiqamətində gördüyü işlərdən danışıb. O, həmçinin islamofobiyaya, dini radikalizmə və ekstremizmə qarşı mübarizənin gücləndirilməsinin, milli-mənəvi, dini, multikultural dəyərlərə hörmətlə yanaşılmasının önəmini vurğulayıb.

Müzakirələrlə davam edən forumda çıxış edənlər ölkələrində pandemiya dövründə multikulturalizmin, tolerantlığın və dini dözümlülüyün inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirləri diqqətə çatdırıblar.

Virtual forumda çıxış edən UNA-nın İcraiyyə Şurasının üzvü, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Azərbaycanın tolerantlıq nümunəsinin, birgəyaşayış dəyərlərinin dünyada təbliği üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizdə təşkil olunmuş beynəlxalq tədbirlərin, forumların əhəmiyyətindən bəhs edib. A.Aslanov bildirib ki, pandemiya səbəbindən ənənəvi tədbirlər təxirə salınsa da, insanlar virtual imkanlardan istifadə edərək forumlar keçirir və fikirlərini, təcrübələrini bölüşürlər. Qlobal böhran insanların qarşılıqlı həmrəyliyini, dostluğunu zəiflədə bilməyib, əksinə onu müvəqqəti olaraq ənənəvi ifadə formasından virtual aləmə daşıyıb. İnanırıq ki, bəşəriyyət birgə səylərlə bu bəladan da alnıaçıq çıxacaq.

## "Ermənilərin əsil simasını dünya ictimaiyyətinə bəlli edəcəyik"



"Rusiyanın 9-cu siniflər üçün "Rusiya tarixi. XIX əsr - XX əsrin əvvəlləri" dərsliyi (kitabın annotasiyasında qeyd olunduğu kimi) tarixi və mədəni standarta uyğun hazırlanıb və tələbələrin zehinsəl maraqlarını inkişaf etdirməyə yönəldilib. Dərslik Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyi tərəfindən tövsiyə olunur. Müəlliflərin fikrincə, dərsliyin metodologiyası məlumatla müstəqil işləmək və ondan praktikada istifadə etmək bacarıqlarının formalaşmasına kömək edən sistem-fəaliyyət yanaşmasına əsaslanır. Müəlliflər rusiyalı uşaqlara saxta tarix öyrədirlər. Məhz, qeyd olunur ki, guya Şərqi Ermənistan 1828-ci ildə Türkmənçay müqaviləsinə əsasən Rusiyaya verilib". Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.

Deputatın sözlərinə görə, bu kimi fikirlərin kitabda yer alması konkret məqsədlidir: "Eyni zamanda tarixi həqiqətlərin saxtalaşdırılmasına yönəldilibdir. "Türkmənçay" müqaviləsi və onun məqsədini biz bilirik. Amma burada hiss olunur ki, tarixi faktların manipulyasiyası var. Məqsədli şəkildə insanların düşüncələri ayrı-ayrı istiqamətlərə yönəldilir və tarix saxtalaşdırılır. Buradakı fikir tamamilə əsassızdır. Ümumiyyətlə "Türkmənçay" müaqaviləsinə əsasən Şərqi Ermənistanın Rusiyaya verilməsi tarixi həqiqətlərin düzgün çatdırılmamasıdır. Amma biz bilirik ki, o dövrdə Şərqi Ermənistan yox idi. Ermənilərin bura haradan köçürüldüyünü bilirik. Bu tamamilə absurd məsələdir. O dövrdəki razılaşma ilə İrəvan və Naxçıvan xanlıqları Rusiyaya verilmişdi. Bu cür fikirlər tarixi saxtalaşdırılmasına istiqamətlənib.

Tarixdən də məlumdur ki, ermənilər bu ərazilərdə yaşamayıb. Onlar sonrakı dövrlərdə Türkiyədən, İrandan və digər ərazilərdən Azərbaycana köçürlüb. Ona görə də bu məsələlərdə diqqətli olmalıyıq. Bu cür saxtalaşdırılmalara yol verməmk olmaz. Biz çalışmalıyıq ki, şagirdlərimizə, gənclərimizə, tələbələrimizə tarixi həqiqətləri olduğu kimi çatdıraq. Ermənistanın işğalçı fəaliyyətinə və bu gün bölgədə apardığı siyasətə müəyyən qədər xidmət etmək məqsədi daşıyır.

Bu çox yalnış fikirdir və gənclərimizin beyninin zəhərlənməsinə xidmət edir. Ona görə də bu məslədə hər birimiz diqqətli olmalıyıq. Çünki burada söhbət tarixi faktların saxtalaşdırılmasından gedir. Biz heç cür tarixi faktların saxtalaşdırılması ilə razı ola bilmərik. Ümumiyyətlə biz bilirik ki, ermənilər dünyanın ayrı-ayrı ölkələrində yalnış təxribatlar aparır və tarixi saxtalaşdırmağa çalışırlar. Ona görə də erməni yalanlarının ifşa edilməsi və onların əsil simasının açılması istiqamətində biz səylərimizi daha da gücləndirməliyik. Qətiyyətlə ermənilərin tarixi faktları saxtalaşdırma cəhdinin qarşısını almalıyıq".

## Kürdəmir rayon İcra Hakimiyyətindəki həbslərlə bağlı təfərrüatlar açıqlandı



Qanun pozuntularının törədilməsində şübhəli bilinən Kürdəmir rayon İcra Hakimiyyətinin vəzifəli şəxslər tutulmuşlar. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, ölkəmizdə həyata keçirilən çoxşaxəli və sistemli islahatlara mane ola biləcək korrupsiya və sair neqativ hallara qarşı mübarizə tədbirləri çərçivəsində prokurorluq orqanlarının qətiyyətli və ardıcıl tədbirləri davam etdirilir. Həmin tədbirlərdən biri kimi, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Kürdəmir rayon İcra Hakimiyyətində baş vermiş qanun pozuntularına dair aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır. Aparılmış istintaqla Kürdəmir rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovun icra hakimiyyəti başçısının birinci müavini Tacəddin Novruzov, İcra hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Natiq Kərimov və icra hakimiyyətinin digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olmaqla və onlar vasitəsilə rayon ərazisində fəaliyyət göstərən səhiyyə, təhsil və digər dövlət müəssisələrindən, habelə bir sıra özəl müəssisələrdən müxtəlif məbləğdə pul vəsaitlərini, eləcə də, dövlətin mənafeyinə ağır nəticələrə səbəb olan mühüm zərər vuran digər qanunsuz hərəkətlər etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Belə ki, istintaqla həmin şəxslərin birbaşa və icra hakimiyyətinin digər vəzifəli şəxsləri vasitəsilə ayrı-ayrı vaxtlarda rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələrindən ümumilikdə 137 min manat, Kommunal Müəssisələr Kombinatından 58 min manat, rayon ərazisində fəaliyyət göstərən təhsil müəssisələrindən 120 min manat, "Azbiyan" Məhdud Məsuliyyətli Cəmiyyətindən 71 min manat məbləğində vəsaiti rüşvət qismində istəyərək almalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilənlərə əsasən, 19 avqust 2020-ci ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən Kürdəmir Rayon İcra Hakimiyyətinin İnzibati binasında, habelə rayonun Suvarma sistemləri və Yaşıllaşdırma idarələrində, Kommunal Müəssisələri Kombinatında və Kürdəmir şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyində əməliyyat-istintaq tədbirləri keçirilmiş, görülmüş tədbirlər nəticəsində həmin şəxslər tutularaq, Ceyhun Cəfərov, Tacəddin Novruzov və Natiq Kərimov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3-cü (rüşvət alma külli miqdarda törədildikdə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Binəqədi rayon məhkəməsinin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda Kürdəmir rayon icra hakimiyyətinin tabeliyindəki qurumlarda və rayon ərazisində fəaliyyət göstərən digər qurumların fəaliyyətində yol verilmiş qanun pozuntularının araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir. İş üzrə təqsirləndirilən şəxslərin dairəsinin dəqiq müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilməsi və istintaqın nəticəsi barədə ictimaiyyətə əlavə məlumat verilməsi təmin ediləcəkdir.

## "Təhsildə hibrit modeli hal-hazırda ən uyğun modeldir"

*Ekspert növbəti tədris ilində tətbiq edilməli qaydalardan danışdı*



"Təhsildə hibrit modeli hal-hazırda ən uyğun modeldir, lakin, gərək şagirdlərin hamısı texniki resurslarla təmin edilsin". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Kamran Əsədov, növbəti tədris ilində tətbiq edilməsi vacib olan qaydalardan danışarkən deyib. Onun sözlərinə görə, bütün hallarda sinifdə şagird sıxlığına xüsusi diqət yetirmək lazımdır, xüsusilə də, ibtidai siniflərdə şagird sayını 20-dən, digər siniflərdə 15-dən çox olmasına imkan verməmk olmaz: "Bütün bunlarla yanaşı isə zəruri tibbi-sanitar normalar gözlənilməli, məktəblər mütəmadi olaraq dezinfeksiya edilməlidir. Fiziki tərbiyə və həyat bilgisi dərsləri mütləq keçirilsin. Həmin dərslərə pandemiya və sağlamlığın qorunması ilə bağlı aktual olan mövzu və idman hərəkətləri daxil edilsin. Bu fənlər, xüsusilə də, fiziki tərbiyə dərsi əlavə dərs cədvəli müəyyən olunaraq tədris oluna bilər".

Ekspert vurğulayıb ki, kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə şagirdlərin məktəb binasına müxtəlif girişlərdən daxil olmasını təmin etmək üçün mövcud olan bütün giriş qapılarından istifadə qaydaları (fərqli siniflər və fərqli otaqlar) müəyyən edilməlidir: "Düşünürəm ki, dərsləri 1 sentyabrdan başlamalı, bütün sentyabr ayı boyunca əvvəlki ilin materialları təkrarlanmalı, yalnız oktyabr ayından yeni sinifin materiallarının keçirilməsinə başlamaq lazımdır. Hesab edirəm ki, bu sahə üçün ilk növbədə qanunvericilik bazası yaradılmalı, ondan sonra digər texniki işlər görülməlidir". Kamran Əsədov deyib ki, bunlardan başqa dərs başlayarkən məktəbdə aşağıdakılara diqqət yetirilməlidir:

1. Məktəb heyəti müvafiq qoruyucu vasitələrlə (lazım olduqda xüsusi geyim, əlcək, üz sipəri, tibbi maska, dezinfeksiya vasitələri) təmin olunsun.
2. Bədən hərarəti yüksək olan şagirdlər məktəbdəki həkimin rəyinə uyğun olaraq məktəbə buraxılmasın.
3. Qapıda qızdırmaölçən cihaz və dezinfeksiya aparatı qoyulsun, hər kəs ondan məcburi istifadə etsin.
4. Şagirdlərin dərs başlayarkən və dərs yekunlaşarkən əllərini sanqovuşaqda yuması təmin edilsin. Bunun üçün məktəbdə infrastruktur qaydaya salınsın.
5. Məktəb həyəti və məktəb daxilində şagirdlərin bir yerə toplaşması qadağan olunsun.

Onun şagirdlərlə bağlı tövsiyələri isə bunlardır:

1. İctimai nəqliyyatdan mümkün olduqca daha az istifadə etsinlər.
2. Məktəbə gələrkən tibbi maska və üz sipərindən istifadə etsinlər.
3. Şəxsi əşyalarını digər şəxslərlə, sinif yoldaşları ilə paylaşmaqdan çəkinsinlər.

Təhsil üzrə mütəxəssis sonda qeyd edib ki, təhsildə hibrit modeli hal-hazırda ən uyğun modeldir, lakin, gərək şagirdlərin hamısı texniki resurslarla təmin edilsin.

Qeyd edək ki, hibrit modeli ənənəvi (məktəbə gəlib-getməklə) aparılan təhsil üslubu ilə distant (onlayn) dərslərin bir arada keçirilməsini dəstəkləyən metoddur.

**Nigar Məmmədova**

# Böyük zəfərlərə imza atılacaq qürurverici inkişaf



***Bu gerçəklik xalq və iqtidar birliyinin bariz təcəssümüdür, desəm yanılmaram. Gəlin müqayisə aparaq, hansı dövlətin başçısı öz xalqına bu qədər yaxın və səmimi olub? Bu gün dünyanı ağuşuna alan gözəgörünməz bəla - COVID-19 pandemiyası peyda olarkən dünyanın ən çox inkişaf etmiş ölkələri bu sınaq qarşısında aciz qaldığı bir məqamda Azərbaycan Prezidenti İlham Əliyev elə ilk andan düşünülmüş və uğurlu addımları ilə bu çətin məqamlardan çıxmağı bacardı. Koronavirusun gətirdiyi bəlalara baxmayaraq, bu gün bütün xalqımız adından böyük qürur hissi ilə bəyan etmək olar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yer kürəsini bürümüş koronavirus biomüharibəsində fövqəladə bacarıq nümayiş etdirmiş, ölkəsini və xalqını xilas etmək vəzifəsini həyata keçirmiş qalib Baş Komandandır.***

Belə ki, dövlət başçısının qəti tapşırıqları əsasında qısa müddətdə ali və orta təhsil müəssisələrində tədris prosesinin dayandırılması, ölkə miqyasında genişmiqyaslı dezinfeksiya tədbirlərinin təşkili, tərəddüd etmədən ölkəmizin sərhədlərinin bağlanmasına dair qonşu dövlətlərlə danışıqların aparılması və qəti qərarların qəbul edilməsi koronavirus biomüharibəsində gələcək qələbənin əldə olunmasının əsas təminatına çevrilmişdir.

Paralel olaraq dövlət başçımızın rəhbərliyi ilə pandemiya dövrünün çağırışlarına uyğun olaraq yeni işlək strukturların yaradılması və bir sıra dövlət qurumlarının fəaliyyətinin yenidən qurulması, onların əlaqəli və operativ işlərinin təşkili koronavirusla mübarizənin bütün cəbhə xətti boyu aparılmasına meydan açmışdır. Ölkə Prezidentinin tapşırığı əsasında Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın operativ məlumatlarının vaxtında xalqa çatdırılması insanların həyat fəaliyyətinin idarə olunması və tənzimlənməsində mühüm rol oynadı. Eyni zamanda, ölkə başçısı bir illik məvacibini aztəminatlı ailələrə ayırdı, bundan başqa dövlət büdcəsindən bir milyard manat vəsait pandemiya ilə mübarizəyə xərcləndi. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondundan ölkəmizin müxtəlif bölgələrində yaşayan aztəminatlı ailələrə yardımlar edildi. Və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə söylədiyi "Biz birlikdə güclüyük!" çağırışı real həyatda, ən çətin proseslərdə taleyüklü məsələlərin həllində özünün real gücünü və əhəmiyyətini isbat etmişdir.

## Növbəti qürurverici uğur - BMT-nin 130-dək üzv dövlətlərinin Prezident İlham Əliyev cənablarına böyük etimadı

Ölkə Prezidenti İlham Əliyevin prezidentlik fəaliyyətinin son 17 ili müddətində Azərbaycan bütün sahələrdə ancaq və ancaq imzası imzalar içində, səsi isə yüksək tribunalardan gəlib və gəlməkdədir. Məhz öu pandemiya zamanında da belə Azərbaycanın dövlət başçısı İlham Əliyevin BMT-nin xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsü, tam mənada BMT dövlətinin dəstəyini qazanması deyilənlərin real sübutudur və bu təşəbbüsün dəstəklənməsində dövlət başçımızın imici, Onun nüfuzu böyük rol oynayır. Və həmin dövlətlər başa düşürlər ki, Azərbaycan Prezidenti İlham Əliyevinin dünya birliyi çərçivəsində oynadığ rol, tutduğu mövqe bir çox dövlətlər tərəfindən dəstəklənir. Belə olan halda Azərbaycanın zəngin təcrübəsindən faydalanmaq lazımdır. BMT-nin 130-dək üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi bir daha beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın, etibarın növbəti göstəricisi oldu. Bu hər bir azərbaycanlı üçün fəxr ediləcək haldır.

Həmçinin, digər bir sevindirici və qürur duyulacaq hissdir ki, məhz Qoşulmama Hərəkatının sədri kimi dövlət başçımız İlham Əliyevin təşəbbüsü ilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda videokonfrans formatında keçirilən Zirvə görüşü dünya siyasətçilərinin əsas mövzusuna, kütləvi informasiya vasitələrinin manşet xəbərinə çevrildi.

Eyni zamanda, onu da vurğulamaq istərdim ki, Azərbaycan koronavirus infeksiyasına qarşı mübarizədə qlobal birliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə edib və 30-dan çox ölkəyə humanitar yardım göstərib. Bir sözlə, bütün bunların arxasında heç şübhəsiz ki, Azərbaycan Prezident İlham Əliyevin yürütdüyü praqmatik siyasət dayanır. Və bu gün Azərbaycanın koronavirus qarşı mübarizədə müsbət nəticələrin əldə olunmasının nəticəsidir ki, artıq ölkəmizdə yumuşalma prosesi gedir. Buna isə xalq-hakimiyyət birliyinin müsbət nəticəsində əldə olunub. Çünki xalq-hakimiyyət birliyi istənilən dövlətdə siyasi sabitliyi və təhlükəsizlik mühitini şərtləndirən həlledici amil olmaqla yanaşı, hər bir kəs özündə məsuliyyət hissi duymalıdır. Prezident İlham Əliyev cənabları da avqustun 6-da ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilə müşavirədə də bunu bir daha vurğulayıb.

## "Ona görə hamımız məsuliyyətli olmalıyıq"

Bu ən əsas məsələdir. Dövlət başçımız keçirilən müşavirədə bildirib ki, yumşalmadan sonra xəstəliyin kəskin artdığı baş verərsə, ö zaman yenidən karantin rejimi sərtləşdiriləcək. Ona görə də, dövlət başçısı həmişə olduğu kimi, bu müşavirədə də bir daha xalqımızı məsuliyyətli olmağa, karantin rejiminin qaydalarına əməl etməyə çağırdı: "Ona görə bütün Azərbaycan vətəndaşlarına bir daha müraciət edirəm ki, məsuliyyətli olun. Bu, çox ağır xəstəlikdir. Bu xəstəlik yaş tanımır, cavan insanlar, gənc insanlar, fiziki cəhətdən sağlam insanlar, idmançılar xəstələnir və rəhmətə gedir. Bu, dünya üçün çox ciddi problemdir, bu gün dünyanın bir nömrəli bəlasıdır. Ona görə hamımız məsuliyyətli olmalıyıq. Əgər belə olsa, dediyim bütün tapşırıqlar yerinə yetirilsə, biz qısa müddət ərzində bu karantin rejimini daha da yumşaldıb normal həyata daha tez qayıda bilərik".

Göründüyü kimi, dövlətin siyasəti onu göstərir ki, insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Ona görə də, bu vəziyyətdən qalib çıxmaq üçün nə qədər lazımdırsa, dözməli, məsuliyyətli, karantin rejiminə əməl etməliyik. Bütün bunlara isə, məsuliyyətli olmağımız nəticəsində nail ola bilərik. Çünki sosial məsuliyyət məsələsidir. Sirr deyil indiki situasiya təkcə dövlət orqanları qarşısında deyil, hər bir vətəndaş qarşısında ciddi məsuliyyət müəyyənləşdirir. Hamı başa düşməlidir ki, sosial yönündən asılı olmayaraq atılan müvəqqəti və məcburi addımların cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür. Və sosial şəbəkələrdə şayiə və dezinformasiya, təşviş doğuran xəbərlər yayanlara qarşı isə ciddi tədbirlər görülür, görülməlidir də. Və dövlətin xalqın təhlükəsizliyi üçün bir qədər də zəruri və sərt addımlar atması ancaq və ancaq vətəndaşların sağlamlığı və təhlükəsizliyi üçündür!

Ümumiyyətlə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, artıq ölkəmiz, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 17 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

Beləliklə, prosesləri təhlil etdikdə, gəlinən obyektiv nəticə budur ki, Azərbaycan koronavirus sınağından üzüağ çıxır. Prezident İlham Əliyevin xüsusi nəzarətində olan və məhz Onun tapşırıq və tövsiyyələri əsasında müvafiq qurumların həyata keçirdiyi işlər qısa müddətdə yekun hədəflərə çatdıracaq. Bu prosesdə dövlət bütün yükü üzərinə çəkib. Vətəndaşlardan isə bircə tələb var - karantin qaydalarına əməl etmək! Çünki Azərbaycanda koronovirusla mübarizə modeli həm də özünü daha da təkmilləşdirmək gücündədir...Budur uğrlu inkişaf! Budur, Azərbaycan Prezidentinin öz xalqına diqqəti, qayğısı! Xoşbəxtik ki, həyata keçirdiyi siyasəti bütünlüklə xalqımızın, bizim rifahımıza həsr etmiş bir LİDERİMİZ var!

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü,***
***"Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

## "Bəzi məmurlar pandemiyaya fürsət kimi baxırlar"

"Həllini gözləyən problemlərin ortadan qaldırılması üçün məmurlarla vətəndaşlar arasında canlı təmaslara ehtiyac var". Bunu SİA-ya Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri Seymur Verdizadə deyib. Onun sözlərinə görə, karantin rejimi yumşalıb, SMS-lə icazə ləğv olunub. Bazar, dükan adamla doludur: "Cavabdeh qurumların yarıtmaz fəaliyyəti üzündən bəzən bir avtobusda 200 nəfərin yol getdiyinin şahidi oluruq. Çimərliklərdə adam əlindən tərpənmək olmur. Əgər vətəndaş küçədə, avtobusda, bazarda koronavirusa yoluxmursa, məmurların qəbul otağında da yoluxmayacaq. Pandemiya üzündən yüzlərlə problem üst-üstə qalaqlanıb. Vətəndaşla canlı ünsiyyətə girmək, həmin problemləri həll etmək lazımdır".



Seymur Verdizadə bildirib ki, Azərbaycanda məmurlar həmişə vətəndaşlarla ünsiyyətdən yayınmağa meyil ediblər: "Heç pandemiyadan əvvəl də məmurlar vətəndaşlarla qol-boyun deyildilər. Nəinki yüksək ranqlı, hətta orta ranqlı məmurun qəbuluna düşmək həmişə müşkül olub. Hesab edirəm ki, bəzi məmurlar pandemiyaya vətəndaşlardan yaxalarını qurtarmaq üçün fürsət kimi baxırlar. Bu cür idarəçilik yolverilməzdir. Məncə, maska taxmaq və sosial məsafəni saxlamaq şərti ilə ənənəvi qəbulları bərpa etmək lazımdır".

## "Minsk Qrupu Ermənistanın təhdidlərinə göz yummamalıdır"

Ermənistanın Dağlıq Qarabağ ərazisində yaratdığı qondarma rejimin lideri Araik Arutyunyanın Gəncəni vurmaq barədə təhdidi, əslində Ermənistanın təşkil etdiyi növbəti təxribatdır. Bu sözləriSİA-ya verdiyi açıqlamasında Azərbaycan Milli QHT Forumunun vitse-prezidenti, Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri Nüşabə Məmmədova deyib. Alyansın sədrinin sözlərinə görə, işğalçı ölkə diqqəti gündən-günə gərginləşməkdə olan sosial-iqtisadi və siyasi böhrandan yayındırmaq məqsədi ilə təxribatlara sürüklənir. "Ermənistanı bu təxribata sürükləyən səbəb nədir? Özünün işğal hərbi strategiyasını həyata keçirən Ermənistanın 12-16 iyul tarixlərində Tovuz rayonu istiqamətində Azərbaycan ərazisinə hücum cəhdi iflasa uğradıqdan sonra, bu bəyanatla Ermənistan hakimiyyəti "hərbi gücə" sahib olduğuunu nümyiş etdirmək, həmçinin diqqəti ölkədə gündən-günə gərginləşməkdə olan sosial-iqtisadi və siyasi böhrandan yayındırmaq niyyəti güdür".




N.Məmmədova bildirib ki, Ermənistan bu bəyanatı ilə özünün işğalçılıq siyasətini bir daha açıq formada bildirdi və münaqişənin sülh yolu ilə həllində maraqlı olmadığını bəyan etdi: "30 ilə yaxındır ATƏT-in Minsk Qrupu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh və dialoq yolu ilə həllini bəyan edirlər. Bu müddət ərzində Minsk Qrupu münaqişənin həlli istiqamətində səy göstərsə də, bu günə qədər nəticə əldə olunmayıb.

Ermənitanın Azərbaycana qarşı bu cür provakativ bəyanatları regionda yarana biləcək qlobal təhlükəni əks etdirir və Azərbaycanı müharibəyə təhrik edir. Münaqişənin sülh yolu ilə, danışıqlar vasitəsi ilə həlli üçün yaradılmış ATƏT-in Minsk Qrupu Ermənistanın bu təhdidlərinə, bu kimi bəyanatlara göz yummalı, problemin həllinə konstruktiv yanaşmaqla öz missiyasını yerinə yetirməlidir".



# Sarkisyandan Paşinyana ötürülən çarx...

## *Ac qarınlar diplomatik vədlərə aldanacaqmı?*

***Bu gün baş verənlərin əsas səbəbi nədir? Erməni siyasi şüurunun cahilliyi, işğal olunan ərazini tərk etmək zəruriliyinin dərk edilməməsi. Erməni xalqı elə zənn edirdi ki, Sarkisyandan yaxa qurtardılar, küçədən özünü "demokrat" hesab edən Nikol Paşinyanın komandasının hakimiyyətə gətirməklə ölkədə müəyyən real dəyişikliklər ediləcək. Proseslər göstərir ki, onlar yenə yanılırlar. Yeni hakimiyyət də əvvəlkilər kimi reallığı ört-basdır etməklə hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərir. Bu, həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həllində özünü göstərir.***

Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolun olmadığını açıq vurğulayırlar. Ancaq əsas məsələ odur ki, bu sadə həqiqəti dərk etməyə erməni siyasi şüuru qabil deyil. Bunu bu günlərdə Paşinyanın BBC-nin "HARDTalk" proqramına verdiyi müsaibə fonunda bir daha özünü qabarıq şəkildə göstərdi.

### Uğursuz müsahibə Paşinyanın ölkəsində olmayan imicini yerlə bir etdi

Ermənistanda mövcud hakimiyyətin xarici siyasət sahəsində naşı olması bu ölkənin özündə də dəfələrlə sərt tənqid hədəfinə çevrilib. Növbəti dəfə Ermənistanın baş naziri Nikol Paşinyanın BBC-nin "HARDTalk" proqramına verdiyi uğursuz müsahibə isə Paşinyanın olmayan imicini yerlə bir etdi. Çətin vəziyyətə düşən Paşinyana jurnalist Stiven Sakur Ermənistanın Azərbaycan ərazilərini qanunsuz işğalı, Tovuz istiqamətində həyata keçirdiyi hərbi təxribat, mülki vətəndaşımızı qətlə yetirməsi, Dağlıq Qarabağa qanunsuz yol çəkilməsi, Avropa parlamentarilərinin bununla bağlı bəyanatı və digər məsələlərlə bağlı ünvanlandığı suallar qarşısında aciz duruma düşərək, bu sualların cavabından yayanıraq, rabitəsiz cavablar verməklə, işğala haqq qazandırmağa çalışıb. Amma bununla, belə demək olarsa, özünü daha da biabır edib. Məhz bu səbəbdən Ermənistanın özündə Paşinyan sərt tənqid atəşlərinə məruz qalıb. Məsələn, politoloq Qaqik Hambaryan bu xüsusda bildirir: "Ermənistan baş naziri Nikol Paşinyanın Britaniyanın BBC telekanalının məşhur "HARDtalk" verilişinə müsahibəsi növbəti dəfə sübut etdi ki, Nikol heç bir mövzu ilə bağlı dərin məlumatlandırılmış deyil, biliyə sahib deyil. Bundan başqa, heç bir əlaqəyə malik olmadığını özünə aid etməkdə tərəddüd etmir, həyata keçirmədiyi və uğursuz vədlərini "unudur". Belə ki, Nikol müsahibə zamanı Qarabağdakı rejimi danışıqlar prosesinə daxil etmək barədə uğursuz planına tamamilə toxunmadı. Çünki bu zaman onu daha çətin suallar gözlədiyini başa düşdü və bundan qorxdu. Amma buna qədər dediklələri də özünü biabırçı duruma salmasına yetdi".

Erməni siyasi-ictimai xadim Mihran Hakobyan da Paşinyanın müsahibə nəticəsində Ermənistana ciddi zərbə vurduğu qənaətində olduğunu bildirib: "BBC"-nin "HARDtalk" formatı çox vacib xüsusiyyətə malikdir: məhz başlanğıcdan xəbərdarlıq edirlər ki, ağır və əlverişsiz suallar olacaq. Paşinyan isə bunlara hazırlaşmamışdı. Yaxşı, ölkəni bu qədər sevməmək olar? Həmvətənlərə bu qədər nifrət etmək olarmı ki, bu adam hamını utancdan kədərlənməyə məcbur edir? Niyə, xalqımızın hansı günahına görə bu adam ingilisdilli auditoriya qarşısında bilmədiyi dildə özünü alçaltmağa razı oldu?".

Bir sözlə, Paşinyan nəzarəti altında olan media vasitəsilə müsahibədə çətin vəziyyətə düşdüyünü ört-basdır etməyə çalışsa da, erməni cəmiyyətində tamamilə fərqli vəziyyət hökm sürür. Bu da Paşinyanın reytinqi üçün növbəti zərbə sayılır.

### Nikol hansı donu geynirsə geyinsin, yamağı görünür...



Ermənistanın Azərbaycana əsassız ərazi iddiasının, davam edən işğal rejiminin düşmən ölkəyə "bəxş elədiyi" ən pis sürpriz onun bütün regional iqtisadi və energetik, kommunikasiya layihələrindən kənarda, blokada rejimində saxlanmasıdır. Bunun da ən birinci səbəbi ölkəyə rəhbərlik edənlərin işğalçılıq siyasəti aparmasıdır ki, bu günə kimi Ermənistan özünün sovetdən qalma rüşeym iqtisadiyyatı ilə on illərdir ki, dünya iqtisadi sisteminə çıxış əldə edə bilməyən və inteqrasiya oluna bilməyən işğalçı ölkə nəticədə tullantı ölkəyə çevrilib. Bu prosesin daha sürətlə baş verməsinin səbəbi isə, sərsəm, siyasi savaddan uzaq olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən daha çətin anlar yaşandı.



Buradan sadə bir məntiqi nəticə alınır: Ermənistanın problemin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Bunu nə ilə izah edirsən et, heç nə dəyişmir. İstər mücərrəd surətdə erməni xalqının iradəsindən bəhs et, istərsə də Paşinyan hakimiyyətinin siyasi iradəsindən dəm vur və ya başqa tarixi "faktlar" gətir, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

Göründüyü kimi, mövcud vəziyyət tamamilə Paşinyanın əleyhinə işləyir. Şantaj, təhdid, siyasi rəqiblərin sıradan çıxarıldığı, müstəqillik dövründə heç bir demokratik seçki keçirtmək təcrübəsinə malik olmayan bir dövlətdə bir ay içərisində demokratik seçkilərin təşkil olunacağı vədi isə boş sözlərdən başqa bir şey deyil.

Baş verənlər onu deməyə əsas verir ki, Nikol Paşinyan saxta və köhnəlmiş fikirləri təkrarlamaqla məşğuldur. Belə bir müqayisə də yerinə düşər ki, Nikol Paşinyanla Qorbaçovun Azərbaycan üçün elə bir fəqri yoxdur, çünki hər ikisi işğalı təfəkkürə maliklilər. Ona görə də, Nikolş hansı donu geynirsə geyinsin, yamağı görünür. Çünki yalan ayaq tutur, ancaq yermir. Yerisə belə uzağa gedə bilmir. Çünki onun geydiyi papışlar bünövrədən cırıqdır.

Məhz bu reallığı anlayan erməni ictimaiyyəti artıq istər Petrasyan, istər Sarkisyan, istərsə də Paşinyan olsun Ermənistanda baş verən ictimai-siyasi gərginliyin, problemlərin bitib-tükənmədiyini görərək ayağa qalxmaqdadır. Etirazçılar bildirirlər ki, əvvəlki quldur rəhbərlərdən Paşinyan heç də fərqlənmir. Və erməni xalqı bilir ki, hakimiyyətə yalan vədlərlə gəlib və hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: necə deyərlər, Paşinyan min-bir hiylə ilə hördüyü corabın toruna özü düşməkdədir.

Bir sözlə, Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini, qalan tənəzzül, iflas, korrupsiya, bürokratik əngəllər bu gündə də davam etməkdədir.

### "Ermənistanı quldur dəstə idarə edir və bu gün bunu erməni xalqı deyir"

Bu faktor əsas amildir. Çünki bir ölkəyə quldur dəstə rəhbərlik edirsə, o ölkənin gələcəyindən danışmağa belə dəyməz. Azərbaycan Prezident İlham Əliyev çıxışlarında dəfələrlə darında erməni tərəfinə dəfələrlə sərt xəbərdarlıqlar edərək bildirib ki, bu gün Ermənistan ordusu bizimlə rəqabət apara bilməz: "Ermənistan indi çox ağır vəziyyətə düşüb. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal diktatura rejimi çöküb. Mən dəfələrlə demişdim ki, Ermənistanı quldur dəstə idarə edir və bu gün bunu erməni xalqı deyir. Ancaq əfsuslar olsun ki, Ermənistanda rəhbərliyə gəlmiş yeni simalar öz məsuliyyətini dərk etmir, sarsaq bəyanatlar verirlər və təmas xəttində, Ermənistan-Azərbaycan sərhədində gərginliyə rəvac verən addımlar atırlar".

Prezident İlham Əliyev onu da bildirib ki, işğalçı ölkədə korrupsiyaya qurşanmış oğru rejimi höküm sürdüyünü erməni xalqı da deyir: "Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir".

Beləliklə, siyasi istiqaməti məlum olmayan və ümumiyyətlə dövlətçilikdə naşı olan Paşinyanın nala-mıxa vurması ölkədə hansısa yenilik vəd etmir. Əksinə, ermənilər daha aydın görürlər ki, onların rifahı, ümumiyyətlə xalq olaraq varlıqları Azərbaycanla normal münasibətlərdən keçir. Belə münasibətlər qurulmayana, işğal faktına son qoyulmayana qədər Azərbaycan Ermənistanın dövlət olaraq çöküşünü davam etdirəcək.

**A.SƏMƏDOVA**

## "Hər bir ev bir səcdagah, ibadətgah hesab oluna bilər"



"Avqust ayının 21-i Məhərrəmlik ayı daxil olur və avqustun 30-u Aşura gününə təsadüf edəcək. Qismət elə gətirdi ki, Məhərrəmlik ayı bu il pandemiya dövrünə təsadüf etdi. Koronovirus bütün dünyanı bürüyən bir bəladır və bütün dünya bununla mübarizə aparır. Bu mənada dünya insanı üçün bir çox ölkələrdə qərargahlar, müxtəlif komissiyalar təşkil olunub ki, bu virusla mübarizə üçün insanların sağlamlığının qorunması üçün əllərindən gələni əsirgəməsinlər. Azərbaycanda da həmçinin Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Həmin Qərargahın da özünün tövsiyyələri və tapşırıqları vardır. Həmin qərarlardan biri də insanların kütləvi şəkildə bir yerə toplaşmamasıdır və müxtəlif mərasimlərin keçirilməməsidir". Bunu SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.

QMİ-nin sədr müavinin sözlərinə görə, bu gün kütləvi yığılan yerlər - toy, yas mərasimləridir. İnsanlar məscidlərə axışırlar və orada kütləvi ibadətləri ilə məşğul olurlar: "Operativ Qərargahın qərarlarından biri də insanların məscidlərə yığılmaması ilə bağlıdır. Artıq neçə müddətdir ki, məscidlərimizdə gündəlik namazlar, Cümə namazları, bayram namazları təxirdədir. Təxirdə olduğu üçün də hələ avqust ayının 31-nə kimi karantin müddəti davam edir. Düşünürük ki, nə qədərki karantin rejimi davam edir və xəstəliyin yayılma təhlükəsi var Qafqaz Müsəlmanları İdarəsi də insanlarımıza müraciət edir ki, hələki məscidlərdə namazlar müvəqqət təxirdədir. Həmçinin bizim Məhərrəmlik mərasiminin keçirilməsi də kütləvi olduğu üçün bu il təxirdə olacaq. Bu zaman insanlar nə etməlidir və həmin ayinləri necə keçirə bilərlər? Onlar ayinləri öz ailələrində, evlərində rahat şəkildə keçirə bilərlər. Artıq hər bir ev bir səcdagah, ibadətgah hesab oluna bilər. İnşAllah Allah-Təala hər bir evdə etdiyimiz duanı qəbul edər. Bu gün bizlər hər birimiz dövlətimiz, xalqımız, dünyamız üçün dua edək ki, Allah bu bəlanı üzərimizdən, dünyadan götürsün. Ümidvarıq ki, biz gələn il məscidlərimizdə artıq öz ayinlərimizi rahat keçirə biləcəyik. Amma hələki bu müvəqqəti xarakteri daşıyır. Bir az səbr etməli və anlayışlı olmalıyıq. Çünki heç kəs istəməz ki, kimsə ailəsində bu virusa yoluxsun və onu itirsin. Bu baxımdan dinimiz də bizi ehtiyata dəvət edir. Dində sağlamlıq çox önəmlidir. Peyğəmbərimizin buyurduğu kimi bir yerdə bəla, vəba xəstəliyi varsa və siz oradasınızsa oranı tərk etməyin. Biz bir çox insanların bu virusa yoluxaraq dünyalarını itirdiyini görmüşük. Ona görə də biz gərək dövlətimizin qərarlarına ehtiramla yanaşaq. Əgər biz bu məsələdə bir olsaq güclü olarıq.

Bildiyiniz kimi biz hər il Məhərrəmlik ayında qanvermə aksiyaları keçiririk. Bu qanvermə aksiyaları artıq məscidlərdə olmayacaq. QMİ təşəbbüslə çıxış etdi ki, qanvermə aksiyalarının təşkili üçün yerlərin ayrılmasını Səhiyyə Nazirliyi özü təşkil etsin. Bu qanvermə aksiyaları Mərkəzi Qan Bankında təşkil olunacaq. Könüllü insanlar şəhidlərimizin ruhuna xatir gedib qanvermə aksiyalarında iştirak edə biləcəklər. Yerlər, məkanlar, ünvanlar QMİ-nin veb saytında (www.qafqazislam.com) da yerləşdirilib. Həmçinin Məhərrəmlik ayında insanlarımız ehsanlar verirdilər. Bunun üçün də heç bir məhdudiyyət yoxdur. Ehtiyacı olanlara, yoxsul insanlara ərzaq payı verilə bilər və yaxud evində xörək bişirib paylaya bilər və s. Allah bütün düalarımızı qəbul etsin inşAllah".

***Ceyhun Rasimoğlu***

## "Koronavirus insanların həyat tərzini dəyişib"



"Koronavirus pandemiyası insanların gündəlik həyat tərzini dəyişib. Dünya və ölkə statistikasında gündəlik bu xəstəliyə yeni tutulanlar və dünyasını dəyişənlər haqqında məlumatlar yayılanda bu ictimaiyyəti məyus edir. 6 ay keçməsinə baxmayaraq pandemiya hələ də davam edir. COVİD-19 həyatımızda təhlükə olaraq bizimlə yaşamaqdadır". Bunu SİA-ya millət vəkili Azər Badamov deyib. Deputatın sözlərinə görə, ÜST tərəfindən qəbul olunmuş bir qayda var ki, o da koronavirusdan qorunmaq üçün yeganə yol özünü təcriddir: "Tibbi maskanın taxılması, sosial məsafənin qorunması və şəxsi gigiyenasının gözlənilməsi gündəlik həyatımızda hər zaman bizimlə olmalıdır. Xüsusən tətbiq olunmuş sərt karantin rejimində yumşalmalar həyata keçiriləndə bu vacibdir. Pandemiya dövründə toy, yas mərasimləri və kütləvi tədbirlərin keçirilməsi koronavirusa yoluxma təhlükəsini artırır. Ona görə də qadağan olunmuş belə kütləvi tədbirlərin keçirilməsi yol verilməzdir və hardasa belə icazəsiz keçirilən tədbirə rast gəliriksə insanlar tərəfindən təşkilatçılar ictimai qınağa çəkilməlidir. Artıq insanların da yeni dövrün çağırışlarına uyğunlaşdığını müşahidə edirik.

Birinci sərt karantin rejimindən sonra ictimai yerlərdə tibbi maska taxanlara az rast gəlinirdisə, indi qapalı ictimai yerlərdə insanların kütləvi şəkildə maska taxdıqlarını və sosial məsafəni gözlədiklərini müşahidə edirik. Məhz insanların pandemiyanın tələblərinə məsuliyyətlə yanaşması,son günlərin statistikasında koronavirus infeksiyasına yoluxmaların sayında azalmaların olunmasına imkan verir. Ölkəmiz müsəlman ölkəsi olduğundan dini bayramlar da kütləvi tədbirlərin keçirilməsi kimi xalqımızın dini və mənəvi dəyərlərinə uyğun təşkil olunur. Namaz qılmağa, kütləvi dini mərasimlərin keçirilməsinə həyatımızın ayrılmaz hissəsi kimi yanaşırıq.

Buna baxmayaraq koronavirus pandemiyasının yaratdığı təhlükə bu tədbirlərin həyata keçirilməsində yeni yanaşmanın ortaya qoyulmasını günün tələbinə çevirib. İslam dinində insanların sağlamlığının qorunması vacib məsələ kimi qeyd olunur. Məsələn namaz qılmaqdan əvvəl mütləq şəkildə dəstəmazın alınması, şəxsi gigiyenasının gözlənilməsi və pak olmaq birinci tələbdir. Həm də xəstəliyin yayılmasına səbəb olmaq və zəmin yaratmaq haram və günahdır. Qlobal pandemiya dünya müsəlmanlarını dini mərasimlərin icrasında yeni yanaşmaya məcbur edib. Məsələn, hər il milyonlarla insanın səfər etdiyi Həcc ziyarətində bu il cəmi min zəvvar iştirak edib. Ramazan və Qurban bayramları da bu il pandemiya dövrünün tələblərinə uyğun təşkil olundu. Təbii ki, bütün bunlar infeksiya təhlükəsindən qorunmaq məqsədi daşıyırdı. İndi isə Məhərrəmlik ayı gəlir. Yəni, məscidlərdə insanların aşura günlərində kütləvi tədbirlərə qoşulması infeksiyanın yoluxma sürətini artıra bilər. Ona görə də belə mərasimləri texnologiyalardan istifadə etməklə onlayn şəkildə, müəyyən tələblər gözlənilmək, qanverməklə icra etmək mümkün olduğunu düşünürəm. Biz hər addımımızı şüurlu surətdə atmalıyıq ki, ölkəmizdə koronavirus infeksiyası azalmağa doğru getsin.

Artıq dünyanın ayrı-ayrı ölkələrində koronavirusa qarşı peyvəndin icad olunduğunu bildirirlər. Düşünürəm ki, əgər peyvənd icad olunaraq dünyada kütləvi peyvəndlənmə keçirilərsə, tez bir zamanda pandemiyanın sonuna çata bilərik. Həm də pandemiyalar heç vaxt əbədi olmamışdır. İndiki dövrdə bizim səbrlə bu işə düzgün yanaşmağımız pandemiyadan az zərər çəkmiş ölkə kimi qalib gəlməyimizə yol açar".

## "Seroloji testlərlə bağlı müraciətlərə müsbət yanaşanlar çoxdur"




"Seroloji testlərin keçirilməsi ilə bağlı müraciətlərə müsbət yanaşanlar çoxdur və razılıq verənlər var. Hələ ki, bizim zənglərimiz davam edir". Bu sözləri SİA-ya açıqlamasında TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun üzvü, infeksionist və həkim-mütəxəssis Nəzrin Mustafayeva seroloji testlərin aparılması prosesinin hazırkı gedişatından danışarkən deyib. Onun sözlərinə görə, nə qədər şəxsdən test götürüldüyü ilə bağlı yekun nəticələr yalnız layihə bitəndən sonra açıqlanacaq: "Hazırda könüllü müraciət yoxdur. Bizim tərəfimizdən proqram vasitəsilə təsadüfi seçilən şəxslərə müraciət olunur. Yaş aralığını nəzərə alsaq, 18-65 yaş arasında olan şəxslər seçilir".

Mütəxəssis bildirib ki, seroloji testlərin əhali arasında təsadüfilik prinsipinə əsasən aparılması layihəsinə artıq start verilib və proqram vasitəsilə seçilən şəxslərə zənglər olunur və layihədə iştirak üçün dəvət edilir: "Bu layihənin əsas məqsədi əhali arasında immun cavabını yoxlamaqdır, çünki, xəstələrin böyük əksəriyyəti xəstəliyi simptomsuz və yüngül simptomlarla keçirmiş olurlar. Onlar özləri də xəbərsiz olaraq bu xəstəliyi keçirmiş və sağalmış ola bilərlər. Buna baxmayaraq, virus orqanizmdə immun cisimciklərin formalaşmasına səbəb olur ki, bu da həmin seroloji testlər vasitəsilə aşkarlana bilir. Bu çox önəmli bir məqamdır və həmin şəxslərin özü üçün də maraqlı bir məlumatdır. Çünki, indiyə qədər şəxsən mənə həkim olaraq, dəfələrlə bu haqda müraciət olunub, insanlar bilmək istəyirlər ki, xəstəliyi gizlicə keçiriblərmi. Çünki, xəstəlik 81 faiz halda ya yüngül simptomlarla keçir, ya da ümumiyyətlə simptomsuz olur".

Nəzrin Mustafayevə əlavə edib ki, testlərdə könüllü olacaq şəxslərə şans yaranır ki, onlar xəstəliyi keçirib-keçirmədiklərini öyrənsinlər: "Müayinə vətəndaşlar üçün tamamilə pulsuzdur və prosesə qoşulan əhali bununla yanaşı, həm də ödənişsiz ümumi qan analizi verməklə imkanı əldə edəcək, həm də əhali bu xəstəliyi keçirib sağaldıqlarını öyrənəcək, yaxud biləcək ki, qanında hazırda immunitet yoxdur, o bu virusu keçirməyib. Bir çox xarici ölkədə bu test strategiyası həyata keçirilib və onlar da əhalinin immunlaşma dərəcəsini öyrəniblər. Tutaq ki, ölkədə bizim PZR (yaxma) testlər vasitəsilə aşkarladığımız pozitiv xəstələrimiz 30 min nəfərdir, lakin, onlardan əlavə, xəstəliyi keçirib sağalanlar da ola bilər, bizim bundan xəbərimiz yoxdur, onların miqdarının nə qədər olmasını müəyyən etmək lazımdır".

İnfeksionist qeyd edib ki, analizlər zamanı əlavə olaraq 26 parametrdən ibarət qanın ümümi analizi də həmin şəxslərə ödənişsiz şəkildə həyata keçirilə bilər: "Bu da eyni müayinəyə daxildir. Seroloji tədqiqatlar növbəti dövr ərzində strategiyamızın müəyyən olunmasına kömək olacaq. Öyrənilməlidir ki, əhalinin hansı hissəsi bu virusu keçirib, yoxsa insanlar bu virusa qarşı hələ də həssasdır. Bu, çox vacibdir". Qeyd edək ki, bu testlər özü də ödənişsizdir, cəmi 3-5 milliqram qan verməklə insan özü haqqında, öz immun sistemi, bu xəstəliyi keçirib-keçirmədiyi barədə informasiya əldə etmiş olur.

***Nigar Məmmədova***

## "Kütləvi ibadət edilən ölkələrdə virusa yoluxanların sayında sürətli artım var"



"Praktika onu göstərdi ki, yas mərasimlərində kütləvi yığışma infeksiyaya yoluxma sürətini kəskin artırır, həm də dini ibadət yerlərinin kütləvi tədbirlər üçün açılmış ölkələrdə koronavirusa yoluxanların və ölənlərin sayında sürətli artımlar müşahidə edilir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü olan deputatı Azər Badamov deyib. Onun sözlərinə görə, pandemiya dövründə əsas tələblərdən biri insan təmasının azadılmasıdır, bu məqsədlə Ümumdünya Səhiyyə Təşkilatının təyin etdiyi xüsusi qaydalar içərisində sosial məsafəni saxlamaq və tibbi maskadan istifadə etmək ön sıradadır: "İnsan təmasının azaldılması məqsədilə dövlətlər ölkələrdə karantin rejimləri tətbiq edir. Bu, karantin rejiminin tələblərinə uyğun olaraq ölkələrdə kütləvi ictimai tədbirlərin dayandırılmasından başlanılır. Azərbaycan pandemiyaya çox həssas yanaşan, insanların sağlamlığını hər şeydən üstün tutan ölkələrdəndir. 6 aya yaxın bir müddətdir ki, iqtisadiyyatın bir çox sektorlarında fəaliyyət dayandırılmış və ya da qismən davam etdirilməkdədir. Təşkilatlara işçi personalının 50 faizə endirilməsini tövsiyyə olunmuşdur. İctimai-mədəni, kütləvi tədbirlər qadağan edilmişdir. Bu, bütün dünyada belə qəbul olunmuşdur. Azərbaycan da dünyanın bir parçasıdır və pandemiya ilə mübarizədə ən effektiv təcrübəni ölkəmizdə tətbiq edirik".

Millət vəkili xüsusilə vurğulayıb ki, praktika onu göstərdi ki, yas mərasimlərində kütləvi yığışma infeksiyaya yoluxma sürətini kəskin artırır, həm də dini ibadət yerlərinin kütləvi tədbirlər üçün açılmış ölkələrdə koronavirusa yoluxanların və ölənlərin sayında sürətli artımlar müşahidə edilir: "Ona görə də pandemiya başa çatana qədər dini ibadət yerlərinin qapalı qalması, məscidlərdə kütləvi namaz qılmaq və digər tədbirlərin keçirilməsi qadağan olunmuşdur. Bu gün dünyada və ölkədə pandemiya təhlükəsi ilə bağlı vəziyyəti hamı görür. Xüsusilə də, dinə ibadət edət insanlar bunu daha yaxşı dərk etməlidirlər. Müqəddəs dini kitablarda da insan sağlamlığı üçün təhlükəli halların yolverilməzliyi haqqında yazılmışdır".

Azər Badamovun fikrincə, bununla əlaqədar ardıcıl olaraq televiziya kanallarında və mətbuatda təbliğat və əhalinin maarifləndirilməsi işləri davam etdirilməlidir: "Bununla yanaşı düşünürəm ki, dövlət tərəfindən aparılan maarifləndirmə işləri dini ibadət yerlərində kütləvi tədbirlərin keçirilməsində mənfi təsirlərinin aşılanmasında kifayət deyil. Bu işə din adamların da cəlb olunması vacib hesab edirəm. Ölkəmiz dini bayramlarla zəngindir. Ona görə də mütləq şəkildə bu maarifləndirmə işlərinə dini icmaların rəhbərlərinin, dini elmli adamların cəlb olunması vacibdir. Dindarların dilindən pandemiyanın potensial təhlükəsi haqqında eşidiləndə dinə inanclı şəxlər daha yaxşı başa düşərlər və qəbul edərlər. Xüsusilə də, qabaqda Məhərrəmlik ayı gəldiyini nəzərə alaraq, televiziya kanallarında dini alimlərin iştirakı ilə dindarları kütləvi tədbirlərdən çəkindirməklə bağlı maarifləndirici aktual verlişlərin keçirilməsini vacib hesab edirəm".

***Nigar Məmmədova***

# Maestro Niyazinin anadan olmasından 108 il ötür

***Dünən dünya şöhrətli dirijor, bəstəkar, ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi Tağızadə-Hacıbəyovun anadan olmasından 108 il ötüb. SİA-nın məlumatına görə, illər keçsə, zaman dəyişsə də, Niyazi ürəklərdə yaşayır, yeri hər zaman görünür.***

Maestronun Azərbaycan Opera və Balet Teatrının səhnəsində hazırladığı Müslüm Maqomayevin "Nərgiz", Qara Qarayevin "Vətən", Fikrət Əmirovun "Sevil" operaları, eləcə də Qara Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri böyük uğur qazanıb. 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasını hazırlayan maestro, həmçinin Ankara Opera və Balet Teatrında Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", Cüzeppe Verdinin "Aida" operalarına, İstanbul Opera və Balet Teatrında türk bəstəkarı Ə.Sayqunun "Koroğlu" operasının ilk tamaşasına və "Yunis Əmrə" oratoriyasına dirijorluq edib.

Tağızadə-Hacıbəyov Niyazi Zülfüqar oğlu (Maestro Niyazi) 1912-ci il avqustun 20-də böyük musiqiçimiz Zülfüqar Hacıbəyovun ailəsində dünyaya gəlib. O, bu soyadın davamçısı kimi özünü yeni bir istiqamətdə təsdiq edə bilib. Niyazinin yeniyetməlik illəri Azərbaycanın səfalı guşələrindən olan Şuşada keçib. O, Azərbaycanın ikinci konservatoriyası, musiqi məktəbi kimi hallanan bu diyarın ab-havasında sənətə ilk addımlarını atıb. Uşaqlıq illərindən Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Hüseyn Cavid, Süleyman Sani Axundov, Abdulla Şaiq, Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Sidqi Ruhulla kimi Azərbaycan incəsənətinin yaradıcıları arasında böyüyüb, onlardan çox mətləblər əxz edib.

Kiçik yaşlarından musiqi ilə məşğul olmasına baxmayaraq, hərbçi olmaq arzusunda idi. İlk musiqi təhsilini Y.A.Şefferlinq adına məktəbdə skripka sinfində almışdı. Sonradan atası Zülfüqar Hacıbəyov və əmisi Üzeyir Hacıbəyovun tövsiyəsi ilə təhsilini Moskvada Mixail Fabianoviç Qnessinin bəstəkarlıq sinfində davam etdirdi. Q.Popov, P.Ryazanov, L.Rudolf, S.Ştrasserin bəstəkarlıq məşğələlərində də iştirak edən Niyazi dirijorluq fəaliyyətinə 1934-35-ci illərdə başlayıb. Bu sahədə xüsusi təhsili olmayan gənc bəstəkar ilk illər Neftçilər İttifaqı Dram Teatrının, Radio Komitəsinin orkestrində çalışmağa başladı. 1935-37-ci illərdə Azərbaycan Dövlət Estrada Orkestrinə rəhbərlik edən Niyazi 26 yaşında artıq keçmiş SSRİ məkanında məşhur insanların siyahısına adını daxil edə bildi.

Milli musiqi sənətində "qızıl mərhələ"nin simvolu 1937-ci ildə Mirzə Fətəli Axundov adına Opera və Balet Teatrında dirijorluq vəzifəsinə dəvət olunan maestro 1938-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan



incəsənəti ongünlüyündə Müslüm Maqomayevin "Nərgiz" operasına dirijorluq edib. 1938-ci ildə Azərbaycan İncəsənətinin birinci Moskva dekadasından sonra Niyazi simfonik orkestrin baş dirijoru və bədii rəhbəri təyin olunub.

1948-ci ildən həyatının son gününə qədər simfonik orkestrin baş dirijoru və bədii rəhbəri olan sənətkarın yaradıcılığı ölkəmizin baş orkestrinin tarixində şanlı mərhələdir. Niyazinin rəhbərliyi ilə orkestr ən yüksək peşəkarlıq zirvələrinə qalxmış, neçə-neçə musiqiçilər nəslini yetişdirən əsl sənət məktəbi olmuşdur. Neçə-neçə musiqiçi Niyazini özünün ustadı və himayədarı hesab edir, onun adını milli musiqi sənətində "qızıl mərhələ"nin simvolu kimi xatırlayırlar.

O, daha çox dirijor pultu arxasında dursa da, bəstəkarlıq fəaliyyətini də unutmadı. 30-cu illərin əvvəllərində ilk əsəri olan "Od içində" fortepiano poemasını, daha sonra "Talış xalq mahnıları" mövzusunda fortepiano pyeslərini, Azərbaycanın ilk simfonik əsərlərindən olan "Zaqatala süitası"nı yazdı. Korifey sənətkar Azərbaycan mahnılarından "Kəklik", "Qaragilə", "Xumar oldum", "Ay bəri bax" və digər simfonik orkestr üçün işləmiş, 1935-ci ildə "Rast" və "Şur" muğamlarını nota köçürüb.

Azərbaycan kinosu səsli filmlərə keçid aldığı dövrlərdə Niyazi bu sahəyə də öz töhfəsini verə bilib. O, bir sıra film və teatr tamaşaları üçün musiqi bəstələyib. Bunların arasında "Kəndlilər", "Mənsur", "Ceyhun və Ülkər" filmlərinin adını qeyd etmək olar. O, "Almaz" filminin musiqisini atası Zülfüqar Hacıbəyovla birgə işləyərək 40-cı illərdə Süleyman Rüstəmin "Təbrizim" şeirinə mahnı bəstələyib. Az sonra isə ilk dəfə "Xosrov və Şirin" operasını yazıb.

### Gənclikdə qazanılan şöhrət...

Dirijorluq fəaliyyəti Niyaziyə elə gənc yaşlarından şöhrət gətirməyə başladı. 1946-cı ildə gənc dirijorların baxış müsabiqəsinin laureatı adını qazanan maestro 1949-cu ildə ən məşhur əsərini - "Rast" simfonik muğamını nota aldı. İlk dəfə xarici ölkəyə 1951-ci ildə "Praqa baharı" festivalında iştirak etmək məqsədilə gedən Niyazi ömrünün sonunadək 23 ölkədə qastrol səfərində olub.

1961-ci ildə Leninqrad Opera və Balet Teatrının baş dirijoru təyin olunan Niyazinin SSRİ-nin ən məşhur teatrlarından birinə rəhbərlik etməyi o dövrdə onun bir musiqiçi kimi böyük nüfuzundan xəbər verirdi. O, burada A.Məlikovun "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasını hazırlamaqla yanaşı, P.Çaykovskinin "Yatmış gözəl" və S.Prokofyevin "Daş çiçək" baletlərinin yeni quruluşuna dirijorluq etmiş, həmin baletlərlə Parisin "Qrand-Opera", Londonun "Kovent-Qarden" teatrlarında qastrol tamaşaları vermiş və böyük uğur qazanıb.

Həmin vaxt maestro Niyazi dünyanın məşhur kollektivlərindən biri olan Londonun Kral Teatrının orkestri ilə çıxış etməli olur. Niyazi bu orkestrlə çıxış edərkən, əlbəttə, öz ustalığına tam arxayın idi. Onu bu sənət səfərinə göndərənlər də bunu yaxşı bilirdi. Maestro Niyazinin ustalığına, musiqi duyumuna bələd idilər. London Kral orkestrinin ifaçılarının, deyirlər, qəribə bir xüsusiyyəti var. Onlar orkestrə gələn bütün dirijorları, necə deyərlər, "dişlərinə vururlar", yoxlayırlar. Hansısa zarafatsevər musiqiçi bu dəfə maestro Niyazini yoxlamaq fikrinə düşür. Maestro Niyazi orkestrlə məşq edəndə həmin ifaçı əsərin ifa tərzi ilə uyuşmayan yad notlar vurur. Niyazi o saat həmin uyarsızlığı duyur və orkestri saxlayır. Sakitcə həmin musiqiçiyə yanaşıb qulağına pıçıldayır: "Bəlkə..."

### Hər şey o ifaçıya aydın olur. Orkestrin qalan üzvləri Niyazinin musiqi duyumunu görüb özlərini yığışdırırlar.

Niyazi 1961-ci ilin ayağı sayalı günlərindən birində Londona səfər etmişdi. O zaman maestronun konsert proqramında Baxın, Bethovenin, Çaykovskinin və neçə-neçə dünya sənətkarlarının əsərləri vardı. Onun bütün konsertləri uğurla keçdi. London qəzetləri Niyazinin ustalığını, ifaçılığını dəfələrlə təriflədilər. Onun haqqında məqalələr yazdılar. Bir gecədə üslubca kəskin fərqlənən musiqi əsərlərinə dirijorluq edəndə də Niyazi ifaçılığına, ustalığına həmişə sadiq qaldı.

1965-ci ildə maestro Niyazi Türkiyə səfərinə gedib. O, həmin məmləkətin ən böyük konsert birliklərindən biri olan Prezident orkestri ilə çıxış etməli olub. Böyük sənətkar Çaykovskinin "Qaratoxmaq qadın" operasına dirijorluq edib. Sonra yenə də həmin orkestrlə dünya sənətkarlarının, Azərbaycan bəstəkarlarının əsərlərini səsləndirib. Türkiyənin mərkəzi qəzetləri bu böyük sənətkarın uğurlu sənət səfəri haqda geniş məqalələr dərc ediblər.

Onun əbədiyaşar sənət naminə çəkdiyi zəhmətlər layiqincə qiymətləndirilib. Maestro ən yüksək mükafatlara layiq görülüb. O, müxtəlif vaxtlarda Dövlət mükafatlarına, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüş, bir çox orden və medallarla təltif olunub, Tbilisinin fəxri vətəndaşı seçilib. Bu gün Niyazinin adı dünya şöhrətli dirijorlarla, bəstəkarlarla qoşa çəkilir. Onun yaradıcılığı əsl örnəkdir. Hələ neçə-neçə nəsillər Niyazi məktəbindən bəhrələnəcək.




## Ərdoğan AKP-dən olan bələdiyyə sədrləri ilə müşavirə keçirib

***Türkiyə Prezidenti, hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sədri Rəcəb Tayyib Ərdoğan Ankarada AKP-dən olan bələdiyyə sədrləri ilə müşavirə keçirib.***

AZƏRTAC xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan bələdiyyələrin fəaliyyətinin dəyərləndirilməsinə həsr olunan müşavirədə rəhbərlik etdiyi partiyanın hakimiyyətə gəlməsi ilə ölkənin siyasi, sosial-iqtisadi həyatında baş verən yeniliklərdən danışıb. Xalqa xidmətin əsas məqsəd olduğunu diqqətə çatdıran dövlət başçısı bələdiyyələrin, eləcə də AKP-nin qarşısında duran vəzifələr barədə fikirlərini bildirib.

## Müharibə əlillərinə daha 250 avtomobil veriləcək

Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə əlillərinin və onlara bərabər tutulan şəxslərin, 1990-cı il 20 Yanvar hadisələri və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təmin olunması işləri davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, nazirlik tərəfindən 2020-ci ildə həmin kateqoriyalardan olan vətəndaşlara daha 400 avtomobilin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən onlardan artıq 150-si təqdim edilib. Bu ilin sonunadək daha 250 avtomobil də veriləcək. Təqdim olunan avtomobillər yerli istehsal olan "Khazar LX" avtomobilləridir. Ümumilikdə indiyədək Nazirlik tərəfindən müharibə əlilləri və digər imtiyazlı şəxslərə 6900 avtomobil verilib.




## XƏBƏRDARLIQ:

## Temperatur 8-10 dərəcə aşağı enəcək

***Avqustun 21-i axşamdan avqustun 24-dək Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, şimal-qərb küləyinin əsəcəyi, küləyin sürətinin 18-23 m/s, 25-30 m/s, 22-si axşam, 23-ü gecə və səhər yarımadanın bəzi yerlərində arabir 32-35 m/s-dək güclənəcəyi gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 8-10 dərəcə aşağı enəcək.***



Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, avqustun 21-i axşam Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq avqustun 24-ü gündüzədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir leysan xarakterli yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi gözlənilir. Qərb küləyi əsəcək, küləyin sürəti 15-20 m/s, 23-28 m/s, ayrı-ayrı yerlərdə arabir 30-35 m/s-dək güclənəcək. Havanın temperaturu tədricən 5-10 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.

# Serj Sarqsyanın axmaq düşüncəsi

*Sabiq prezident Nikol Paşinyanı müharibəyə təhrik etməklə daxili publikaya oynayır*

***Ermənistanın sabiq prezidenti Serj Sarqsyanın Qarabağ münaqişəsi ətrafında bəhs edərkən axmaq düşüncələrə dalması, xüsusilə onun I Qarabağ müharibəsində azərbaycanlılara qarşı və ümumən, insanlıq əleyhinə vəhşiliklər törətməsi faktı kimsəyə sirr deyil. Lakin maraqlısı ondadır ki, bu erməni cəlladı hələ də erməni, eyni zamanda, dünya ictimai rəyini öz sərsəm fikirləri ilə aldatmağa cəhdlər göstərir. Məhz bu baxımdan, onun jurnalistlərlə söhbəti zamanı irəli sürdüyü məntiqsiz fikirləri bir sıra suallar yaradır və bu suallara cavablar verir.***

### Illərdir davam edən "qalib erməni ordusu" stereotipinin kökündən sındırılması həmin müharibədən sonra özünü birmənalı olaraq sübuta yetirdi

Ancaq daha bir məsələ ondadır ki, məhz 2016-cı ilin aprel müharibəsində işğalçı Ermənistanın məğlubiyyəti, eləcə də məğlubiyyətin aşkar səbəbləri ətrafında Serjin özünü təmizə çıxarmaq cəhdləridir. Ermənistan KİV-lərinin yazdıqlarına görə, S.Sarqsyan hesab edir ki, bu gün Ermənistanda və bu ölkənin ətrafında baş verən olaylar 2016-cı ildə Qarabağda baş vermiş aprel müharibəsi ilə bağlıdır. Əslində bu ifadədə müəyyən həqiqətlər də var. Misal üçün, aprel müharibəsindən sonra ermənilər anlamağa başladılar ki, onlar güclü Azərbaycan qarşısında yalnız ağır məğlubiyyətlərə layiqdirlər və onların illərdir davam edən "qalib erməni ordusu" stereotipinin kökündən sındırılması həmin müharibədən sonra özünü birmənalı olaraq sübuta yetirdi. Bu isə ölkədə narazılıq dalğasını artırdı və bəlli olduğu kimi, mövcud Nikol Paşinyan hakimiyyəti Qərb fondlarının, əsasən Sorosun dəstəyindən istifadə edərək, rusmeylli Sarqsyan iqtidarını "məxməri inqilab" vasitəsi ilə devirdi. O cümlədən, Ermənistanda anti-Rusiya meyllərinin artması da bu ölkənin dalana dirənməsi prosesinə kifayət qədər öz təsirini göstərməkdədir.



Saqsyanın ifadələrində müəyyən həqiqətlər də var: "Bu gün danışıqlar prosesi ya dalana dirənib, ya da təsəvvürümdə olduğu kimi getmir və müharibə ehtimalını artırır"

"Aprel müharibəsi adi müharibə deyildi, böyük hərbi-siyasi hadisə idi ki, nəticədə daxili və xarici siyasətə təsirini göstərdi", deyən Sarqsyan əlavə edib ki, aprel müharibəsi eyni zamanda, Qarabağın "müdafiəsi" və "təhlükəsizliyi" ilə də sıx bağlı idi: "Bu gün danışıqlar prosesi ya dalana dirənib, ya da təsəvvürümdə olduğu kimi getmir və müharibə ehtimalını artırır".

Əslində, ermənilərin devrilmiş prezidentlərinin bu ifadələrində müəyyən həqiqətlər də var. Düzdür, S.Saqrsyan da zamanında işğalçılıq və təcavüzkarlıq xarakterində bəyanatlarını səsləndirirdi, ancaq N.Paşinyandan fərqli olaraq, zəif və müdafiə qabiliyyəti demək olar ki, olmayan ordunu güclü Azərbaycanın qarşısında çıxılmaz vəziyyətə sürükləmirdi. Yəni cəbhənin təmas xətlərində atəşkəs rejimini pozan erməni ordusu lokal silahlı qarşıdurmalara getmirdi. Yalnız aprel müharibəsində - Qarabağda bunu etməyə cəhd etsə də, layiqli cavabını aldı. Bu isə hakimiyyətin devrilməsi ilə nəticəsini tapdı.

### Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi bəyanatı Azərbaycan Prezident İlham Əliyevin "Qarabağ Azərbaycanındır və nida!" bəyanatı ilə alt-üst edildi, Ermənistan beynəlxalq siyasi arenada dəstəklənmədi



Ancaq Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi bəyanatı Azərbaycan Prezident İlham Əliyevin "Qarabağ Azərbaycanındır və nida!" bəyanatı ilə alt-üst edildi, Ermənistan beynəlxalq siyasi arenada dəstəklənmədi və əsasən, Tovuzda baş vermiş silahlı təxribata görə sərt şəkildə qınanıldı. Əlbəttə ki, S.Saqsyan bu amilləri nəzərə alaraq, Ermənistanın və qondarma "DQR"in ciddi təhlükə altında düşdüyünü, müharibə mümkünlüyünün artdığını bəyan edərək, bu ifadələri ilə, necə deyərlər "çulunu sudan quru çıxarmağa" cəhd göstərib.

İndi isə gələk sabiq erməni prezidentinin axmaq fikirlərinə. O, bəyan edib ki, iri miqyaslı müharibə halında Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanımalıdır. Sual yaranır: onun perzidentliyi dövründə bir neçə dəfə müharibə mümkünlüyü baş verib və maraqlıdır, o nəyə görə bu addıma getməyib və "DQR"in müstəqilliyini tanımaqdan imtina edib? Təbii ki, Serj bunu etsəydi, onun ölkəsi və tanınmayan "respublika" üçün daha ağır fəsadlar baş qaldıra bilərdi. Təkcə aprel müharibəsinə görə (biz hələ Naxçıvandakı Günnüt qələbəsini demirik-R.R.) S.Sarqsyan ciddi araşdırma obyektinə çevrilib və əgər o "DQR"in tanınması üçün addıma getsəydi, bu zaman ölkəsinin hansı vəziyyətə doğru sürüklənəcəyini təsəvvürə gətirmək olmaz.

### Əbəs deyil ki, bu fikirlərindən sonra, Serj, əsl həqiqəti və reallığı da ifadə edərək, özü-özünü təkzib edir: "Azərbaycanın heç bir rəhbəri Qarabağın müstəqilliyi ilə razılaşmayacaq"

İndi isə, o düşünür ki, N.Paşinyan bunu etməlidir. Söz yox ki, ermənilərin sabiq prezidenti baş nazirin qondarma "DQR"i tanımayacağını, buna cürət edə bilməyəcəyini yaxşı bilir, sadəcə həmin ifadələri ilə daxili publikaya oynayır, bu vasitə ilə Paşinyanı müharibə vəziyyətini artırmağa təhrik edir. Lakin...

Lakin daha bir ilginc məsələ budur ki, S.Sarqsyan Qarabağ məsələsinin həllinin beynəlxalq təsir vasitəsi ilə həll oluna bilinəcəyinə eyham vurub. Bu zaman növbəti sual yaranır: Qarabağ münaqişəsində Ermənistan günahlar tərəf kimi göstərilir, BMT və s. beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və təcavüzkar qüvvələrin qeyd-şərtsiz işğal altındakı əraziləri tərk etmələrini tələb edən qətnamələr qəbul edib. Bu zaman Serj hansı beynəlxalq təsirdən dəm vurur? Məgər o, yaxud hazırkı hakimiyyət ümumiyyətlə, beynəlxalq tələbləri vecinə alırlarmı? Almırlarsa, bu həyasızlıq nəyə gərəkdir? Və ya Tovuz hadisələrindən sonra mühüm beynəlxalq siyasi dairələr ermənilərin bu təxribatını pisləyən bəyanatlarla çıxış edərək, Azərbaycanın ədalətli mövqeyinə dəstək nümayiş etdirdilər, bütün bunlardan sonra S.Sarqsyan hansı beynəlxalq təsirdən danışır? Əbəs deyil ki, bu fikirlərindən sonra, Serj, əsl həqiqəti və reallığı da ifadə edərək, özü-özünü təkzib edir. SİTAT: "Azərbaycanın heç bir rəhbəri Qarabağın müstəqilliyi ilə razılaşmayacaq".

Onda belə nəticə hasil etmək olar ki, S.Sarqsyan ya özünü axmaq yerinə qoyub, ya da Ermənistan ictimaiyyətini bütövlükdə axmaq hesab edir. Çünki əvvəlcə bir, sonra isə digər təkzibli fikirləri ortaya atan bu adam sözün əsl mənasında mövcud Ermənistan rəhbərliyinin və eyni zamanda ictimai-siyasi ab-havasının gerçək mənzərəsini sərgiləyir. Bu mənzərə isə, həqiqətən də çox ağır və çıxılmazdır.

**Rövşən RƏSULOV**

# "Paşinyanın medal verdiyi hərbiçilər sabah onu devirməyə qalxacaqlar"

***"Ermənistanın Tovuz istiqamətində hərbi təcavüzünə qarşı Azərbaycanın güclü hərbi zərbəsi, paralel olaraq diplomatik müstəvidə prosesləri öz lehimizə çevirməyimiz, Paşinyan iqtidarını çıxılmaz vəziyyətə saldı. Demək olar ki, sərhəddə və xarici siyasətdə arda-arada məğlubiyyət ona qarşı daxildə narazılığı pik səviyyəyə qaldırdı. Ermənistanın vətəndaş cəmiyyəti institutları, siyasi partiyalar Paşinyan hakimiyyətinin bu məğlubiyyətini onun apardığı uğursuz siyasətdə görürdülər. Hətta Rusiya KTMT çərçivəsində Ermənistana siyasi dəstək vermədi. Halbuki, Azərbaycan döyüşləri Ermənistanın sərhədlərindən içəri daşımışdı. Baxmayaraq ki, Tovuz təxribatının arxasında Moskva dururdu". Bunu SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.***



Politoloqun sözlərinə görə, Tovuz təxribatlarında Ermənistanın işağlçı mahiyyəti birdaha ortaya çıxmaqla, regionda və beynəlxalq münasibətlər sistemində Qarabağla bağlı mövqeyimizi möhkəmləndirmiş olduq. Demək olar ki, dünya birliyi birmənalı şəkildə Azərbaycanı dəstəklədi: "Baş verən bu proseslər fonunda Ermənistan hakimiyyəti öz uğursuzluğunu ört-basdır etmək üçün Tovuz təxribatlarının iştirakçısı olan bəzi hərbiçilərə orden və medallar verdi.

Əlbəttə, bu medalları verməklə Paşinyan Tovuz məğlubiyyətinin acı nəticələrini daxili auditoriyada "qələbə" kimi təqdim etməyə çalışdı. Amma, bunun əsl cavabını sabiq prezident Serj Sarqsyan verdi. Serj Sarqsyan Tovuz döyüşlərində bir neçə hərbiçiyə mükafat və medalların verilməsini əsassız olduğunu qeyd etdi. Bunu onunla əsaslandırdı ki, Tovuzda Ermənistanın heç bir qalibiyyəti olmayıb.

Ermənistanda daxili siyasi vəziyyətinin gərginləşməsi, Paşinyanın "Qarabağ klanına" qarşı cəza siyasəti digər vəd etdiyi islahatları arxa fona keçirib. Artıq, ABŞ və Rusiyada Ermənistan hakimiyyətinə qarşı çox ciddi ölçü götürülməsində maraqlıdır. Hər iki tərəf Paşinyanın apardığı siyasəti özlərinin geosiyasi maraqlarına cavab vermədiyində görürlər. Məhz onun nəticəsidir ki, Paşinyan nə "demokratik" lider kimi Ağ Evə dəvət edildi, nə də müttəfiq kimi Kremlə çağırıldı. Baxmayaraq ki, Paşinyan özünü regionun "demokratik" lideri hesab edir. Rusiyada Ermənistanın müttəfiqi kimi Paşinyanı Moskvaya rəsmən dəvət etdi. Göründüyü kimi Paşinyanın hazırkı siyasəti regionda manevr siyasəti qurmaq idi. Azərbaycan kimi tarazlıq siyasəti aparmaq, bununla da Qarababağ məsələsini arxa plana keçirmək idi. Amma, onun bütün cəhdləri boşuna çıxdı. Azərbaycan regionun aparıcı ölkəsi, iki qitəni birləşdirən enerji və nəqliyyat layihələrinin birbaşa iştirakçısı olaraq uzun illərdir ki, manevr siyasəti həyata keçirib.

Ermənistan məhz işğalçı ölkə olaraq Rusiyanın "for-post"u ola-ola manevr siyasətinə əl atır. Təbii ki, bu aksiyomadır və Ermənistan onda müstəqil ölkə statusu alacaq ki, işğal olunmuş Azərbaycan ərazilərindən çıxsın. Bundan sonra Paşinyanın demokratik islahatlar paketi reallaşa bilər. Ermənistanda hazırkı siyasət bu ölkədə növbəti silahlı çevrilişə aparır. Paşinyanın medal verdiyi hərbiçilər sabah onu devirməyə qalxacaqlar. Çünki, bundan sonrakı proseslərdə Rusiya çalışacaq ki, sabiq DTX rəsi A.Vanetsyan vasitəsilə onun siyasi dayaqlarını zəifltsin. Bu istiqamətdə ordudan da istifadə ediləcək".

**Ceyhun Rasimoğlu**

# Müsəlman dünyasında avqustun 21-i hicri təqvimilə Məhərrəmlik ayıdır

***Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasına və inkişafına çox böyük önəm verib.***



Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdəki multkultural dəyərələri və tolerant mühiti dünyaya bəyan edir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə və olan münasibəti də, əməli fəaliyyətində aydın görünür.

Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Dövlət başçısı, mütəmadi olaraq, din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir və dini ibadət yerləri təmir-bərpa olunub, inanclı insanların istifadəsinə verilir. Ölkə ərazisində 2200-dən artıq məscid fəaliyyət göstərir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də, dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Əsrlərin süzgəcindən keçərək, müasir dövrümüzədək qoruyub-saxladığımız milli-mənəvi, dini adət-ənənələrimiz yaşayır və düzgün şəkildə insanlara çatdırılır.

## İSLAMİYYƏTDƏ MƏHƏRRƏMLİK AYININ ÖZ FƏZİLƏTİ VƏ ÖZ DƏYƏRİ VAR

Müsəlman dünyasında avqust ayının 21-i hicri təqvimilə Məhərrəmlik ayıdır. Hicri-qəməri təqvimi ilə 1441-ci il başa çatır, yeni 1442-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2020-cü il avqust ayının 21-nə təsadüf edir. Məhərrəm ayının 10-u-Aşura günü 2020-ci il avqust ayının 30-na təsadüf edir. İslamiyyətdə bu ayın öz fəziləti və öz dəyəri var. Bu ay bütün islam dünyasında mənəvi paklıq, saflaşma və ilahi hidayət ayı kimi qeyd edilir. İslama etiqad edən hər bir müsəlman Məhərrəmlik ayında nəyi necə etmək və necə davranmaq barədə götür-qoy edir. Məhz bu zərurətə uyğun olaraq, hər bir müsəlman Məhərrəmlikdə xüsusi qaydalara əməl etməyə çalışır, nəyin doğru, nəyin yanlış olması barədə dərindən düşünür.

Bildiyimiz kimi, Qafqaz Müsəlmanlarıİdarəsinin (QMİ) Qazılar Şurası qarşıdan gələn Məhərrəm ayı ilə bağlı müraciət yayıb. Müraciətdə deyilir ki, bu ay Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biri olmasına baxmayaraq, Aşura günü İmam Hüseyn əleyhissəlam tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi Əhli-Beyt (ə) tarixinə kədərli, lakin, eyni zamanda, inanclı insanlara qürur bəxş edən bir məqam kimi daxil olub. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, İmam Hüseyn əleyhissəlamın həyat və mübarizəsinin yad edilməsi olduqca böyük mənəvi-əxlaqi əhəmiyyət kəsb edir. İmam Hüseyn əleyhissəlamın əzadarlığı iman sevgisinin, əqidəyə sadiqliyin, Vətən uğrunda şəhadətə hazırlıq ruhunun təcəssümüdür.

## İNSANLARIMIZ HÖKUMƏTİN VERDİYİ ZƏRURİ QƏRARLARA HÖRMƏT, MƏSULİYYƏT VƏ ANLAYIŞLA YANAŞIRLAR

Müraciətdə bildirilir ki, bu il Aşura dünyada davam edən koronovirus pandemiyası dövrünə təsadüf edir. Aylardır ki, koronovirus pandemiyası bütün dünyanı cənginə alıb, yüz minlərlə insan bu qorxunc bəla üzündən həyatını itirib, milyonlarla insan xəstəxanalarda ölümlə həyat arasında mübarizə aparmaqdadır. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan, hələ də səngiməyən bu bəlanın aradan qaldırılması yönündə dünya birliyi böyük səylə çalışır. Şükürlər olsun ki, dövlətimiz tərəfindən xəstəliyin aradan qaldırılması üçün bütün lazımı tədbirlər görülür, insanlarımız diqqət və qayğı ilə əhatə olunublar. Müraciətdə o da bildirilir ki, ölkə rəhbərliyinin qayğı və diqqətini öz üzərində hiss edən insanlarımız hökumətin verdiyi zəruri qərarlara hörmət, məsuliyyət və anlayışla yanaşırlar: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti sayəsində vətəndaşlarımızın sağlamlığı üçün önləyici tədbirlər görülür, həm Bakıda, həm də ayrı-ayrı bölgələrimizdə modul tipli xəstəxanalar istifadəyə verilir. Xəstəliklə mübarizədə yerli həkimlər fədakarlıq nümayiş etdirir, əcnəbi həkimlər də prosesə cəlb olunur. Nazirlər Kabineti yanında Operativ Qərargah xəstəliyin miqyasının genişlənməməsi, əhalinin sağlamlığının qorunması məqsədi ilə lazımı tədbirlər həyata keçirir, müvafiq tövsiyələrini verir".

## BU İL MƏHƏRRƏMLİK DÖNƏMİNDƏ MƏSCİD VƏ ZİYARƏTGAHLARDA TƏZİYƏ MƏRASİMLƏRİ KEÇİRİLMƏYƏCƏK

Dünyanın bütün nöqtələrində bu və ya digər şəkildə təcridolunma həyata keçirildiyi, İslamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarətinin, habelə digər dinlərin müqəddəs ayinlərinin müvəqqəti dayandırılması artıq dövrümüzün gerçəkliyidir. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl edilməsinin təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bəyan edir ki, Operativ Qərargahın qərarına əsasən bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimləri keçirilməyəcəkdir.

Belə ki, Aşura iləəlaqədar kütləvi dini tədbirlərin, ayinlərin keçirilməsi ölkədə yeni növ koronavirusla mübarizədəəldə edilmiş uğurlara zərbə vura, vəziyyətin yenidən pisləşməsinə, karantin rejimininin daha da uzanmasına və ya yenidən sərtləşdirilməsinə səbəb ola bilər.Xarici ölkələrin təcrübəsi göstərir ki, dini ibadət yerlərinin kütləvi tədbirlər üçün açılması həmin ölkələrdə epidemioloji vəziyyətə olduqca mənfi təsir göstərir. Deməli, bu məsələdə xüsusi riskə getməmək vəəldə olunan uğurların davamını təmin etmək başlıca şərtdir. Ölkədəki epidemioloji vəziyyət nəzərə alınmaqla, bu il Azərbaycanda Ramazan və Qurban bayramları iləəlaqədar məscidlərdəənənəvi bayram namazları qılınmayıb. Mövcud vəziyyətdə Aşura mərasiminin məscidlərdə qeyd olunmamasında da qeyri-adi səbəb yoxdur. Bu, kütləvi tədbirlərləəlaqədar bu vaxta qədər verilmiş qərarların məntiqi davamıdır. Bütün möminlər bunu anlayışla və həmrəyliklə qarşılayırlar. Bütün dünyada kütləvi tədbirlər qadağan olunub, insanların bir yerə toplaşması prosedurlarını tənzimləyən xüsusi qaydalar tətbiq edilib. Ümumdünya Səhiyyə Təşkilatı, ekspertlər izdiham, mitinq, ayrı-ayrı mərasimlərin insan həyatı üçün ölümcül təhlükə olduğuna dair ardıcıl açıqlamalar, bəyanatlar verirlər. Müqəddəs Quran daim birlik və bərabərliyə, sosial məsuliyyətə və xeyirxahlığa çağırır. İnsan sağlamlığının qorunması dinimizin əsas şərtlərindən biridir və onun yerinə yetirilməsi ilə bağlı hər birimizin üzərinə böyük məsuliyyət düşür. Bir müddət öncə Bakıda keçirilmiş aksiyada minlərlə insanın iştirak etməsi sanitar-epidemoloji vəziyyətə mənfi təsir göstərdi. Buna görə də, kütləviliyi ilə seçilən, sosial məsafənin saxlanması mümkün olmayan Aşura mərasiminin izdihamla keçirilməsi, yürüşlər təşkil olunması, məscidlərin, ziyarətgahların qarşısında toplaşmaq insanlarımız və cəmiyyətimiz üçün böyük təhlükədir.

Həmişə müqəddəs dəyərlərə hörmətlə yanaşan, nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini hər zaman yüksək tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində hazırkı çətinliyi də geridə qoyacaq, dini tədbirlərini növbəti illərdə davam etdirəcək.

Dinimiz müxtəlif xəstəliklərə qarşı önləyici tədbirlərin alınmasına, xüsusilə yoluxucu xəstəliklərə qarşı son dərəcə diqqətli olmağa çağırır. Hər bir insan belə bir təhlükədən özünü gözləməlidir. Yoluxucu xəstəliklərin geniş yayıldığı şəraitdə yaşayan insanlar bu mövzuda ayıq olmalı, heç bir vəchlə öz həyatını təhlükəyə atmamalıdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# ÜST karantin rejiminin bütün ölkə üzrə yox, bölgələr üzrə tətbiq olunmasını tövsiyə edir

***COVID-19 xəstəliyinin ortaya çıxmasından bəri aylar ötüb. Hər zaman dediyimiz kimi, bu yeni xəstəlikdir. Ona görə bu virusla, xəstəliklə bağlı çox az şey bilirdik. Aylar keçdikcə bu barədə məlumatımız da çoxaldı. AZƏRTAC xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib.***



O bildirib ki, bütün bu tədbirlər dünyada olduğu kimi Azərbaycanda da xəstələrin sayının azalmasına səbəb oldu. Lakin bütün dünyada olduğu kimi, Azərbaycanda da həm ictimai həyat, həm də iqtisadi həyatla bağlı olaraq bütün əhaliyə və hökumətin üzərinə yük gətirdi.

İctimai səhiyyə tədbirlərindən bəhs edərkən ara məsafəsinin saxlanması, maskadan istifadə, gigiyenik qaydalarına və əl gigiyenası qaydalarına riayət edilməlidir.

Bunların nəticəsində ortaya çıxan ictimai səhiyyə sahəsində önləyici tədbirlər bütün dünyada faydalı oldu. Yeni nə zaman bu önləyici tədbirlər tətbiq edildisə, orada xəstələrin və ölümlərin sayı azaldı. Harada bu tədbirlər daha az tətbiq edildisə və ya tətbiq edilmədisə orada xəstələrin sayı artdı. Bu eyni ölkə üçün də müşahidə olundu. Eyni ölkə bu karantin rejiminə bənzər ictimai səhiyyə tədbirlərini tətbiq etdiyi zaman xəstə sayı azaldı. Bunları aradan qaldırdığı zaman isə xəstələrin sayları artdı.

O bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatı xəstəliyin çıxdığı birinci gündən etibarən bu xəstəliklə bağlı mövcud olan bütün dəlilləri toplayaraq ən düzgün təlimatları hazırlamağa çalışdı. Bu tövsiyələrdən ölkələr özləri üçün ən uyğun olduğu düşündükləri tədbirləri alaraq bunlardan istifadə etdilər. İndi pandemiya ilə mübarizədə yeni bir dövr başlayır. Payız fəsli gələndə bu xəstəliklə əlaqədar bir çox ekspertlər qlobal olaraq xəstə saylarının artmasını gözləyir. "Ümumdünya Səhiyyə Təşkilatı yeni bir dövrdə artıq alınan təlimatların istifadəsini tövsiyə edir. İndiyədək öyrəndiyimiz hər şeyi yenidən nəzərdən keçirməyimiz artıq bundan sonra ölkələrin ümumi olaraq sıx karantin rejiminə deyil, bölgə-bölgə olaraq bu tədbirlərin görülməsi, onlardan istifadə edilməsinin lazımlılığını tövsiyə edir," - deyə Hande Harmancı bildirib.

ÜST təmsilçisinin fikrincə pandemiya ilə mübarizənin lokallaşdırılması üçün bütün ölkələrin hansı bölgələrdə xəstəliyin vəziyyəti ilə bağlı məlumat toplaması çox önəmlidir. Nəzarət və epidemioloji sistemlərin etibarlı olması da vacibdir.

COVID-19 xəstələri ilə təmasda olanların izlənilməsi, yəni bir nəfər xəstə olduğu zaman, o insan hansı insanlarla ünsiyyətdə olub, həmin şəxslərin müşahidəsi və onların da bu xəstəliyi başqasına yoluxdurmasının qarşısının alınması son dərəcə önəmlidir.

Bu xəstəlik ən azı bir il, böyük ehtimalla iki il və daha çox bizimlə birlikdə olacaq. Odur ki, bütün dünyanı əhatə edəcək vaksinin tapılması üçün ümidimiz var, amma ortada sübutumuz çox yoxdur. Ona görə peyvənd tapılarsa belə, onun hər kəsə çatdırılması üçün uzun müddət lazımdır. Ona görə biz gigiyenik qaydalara və ara məsafənin qorunmasına çalışmalıyıq.

Önümüzdəki günlərdə və aylarda artıq yeni normal həyata dönmək üçün bütün ölkələrin yollar axtarması lazımdır. Bu yeni normal həyat sosial və iqtisadi həyat davam edərkən, eyni zamanda, xəstəliyə yoluxmanın qarşısının alına bilinəcəyi bütün qaydalardan istifadə edilməlidir. İnsanlar gigiyenik qaydalarına riayət etməli, ara məsafələri saxlamalıdırlar.

Hande Harmancı hesab edir ki, bunlar edildikdə ölkələr və hökumətlər ümumiyyətlə sərtləşdirilmiş karantin rejimi kimi tədbirlərin tətbiqinin əvəzinə yerli, bölgələrə, kəndlərə xas tədbirlər görərək bu xəstəliklə mübarizəni apara biləcəklər. Ümid edirik ki, bundan sonra ÜST olaraq bütün ölkə miqyasında deyil, lazımi və əhali arasında xəstəliyin yayıldığı yerlərdə yerli, lokal qapanmaları tətbiq edərək bu xəstəliklə mübarizəni aparacağıq.

# Fikrət Hüseynli "Soros" fondunun Əli Kərimli ilə əlaqələrinə dair yeni faktlar açıqlayacaq?

*Müxalifətdaxili çəkişmələr fonunda diqqətçəkən məqamlardan biri də, bəzi xarici maraqlı dairələrdən maddi və mənəvi cəhətdən asılı olan partiyaların son vaxtlar fəaliyyətlərini təxribatlar törətmək, pozuculuq aktlarına rəvac verməklə, böhranlı durumdan çıxmağa çalışmalarıdır. Xüsusi ilə də, Müsavat, AXCP və "Milli Şura"da təmsil olunan ağıldan kasad funksionerləri və baş bilənləri sosial şəbəkələrdə canlı yayımlara çıxaraq birbaşa erməni maraqlarına xidmət edən açıqlamalar edirlər. Bu məsələdə onlara xaricdə məskunlaşan "söyüş müxalifəti" nin fəal üzvlərdə informasiya dəstəyi göstərirlər.*

Bəzən daxili və xarici məkrli dairələrin eyni mövqedən çıxış etmələri və sosial şəbəkələrdə paylaşmalar etmələri onların eyni mərkəzdən idarə olunduqlarını bir daha təsdiqləmiş olur. Məlum olur ki, müxalifət partiaya sədrlərinin hərəsi bir xarici fonda və ya dairəyə bağlı olsada koodinasiya vahid mərkəzdən həyata keçirilir. AXCP sədri Əli Kərimlinin "Soros" fondu ilə yeni əlaqələrinin üzə çıxması daha çox diqqəti çəkir. O mənada ki, Ə.Kərimli "Soros" fondunun İngiltərə nümayəndəliyinin rəhbəri Conatan Mekazile ilə yeni əlaqələri üzə çıxıb. Bəlli olub ki, Ə.Kərimli "Azadlıq" qəzetinin keçmiş yazarı Fikrət Hüseynli vasitəsi ilə C.Mekazile ilə əlaqələr qurub və ona Corc Sorosa salamlarını çatdırmağı xahiş edirb. Bu barədə məlumat verən adının çəkilməsini istəməyən mənbənin sözlərinə görə, C.Mekazile yenidən əməkdaşlıq münasibətlərinin bərpa olunmasından məmnunluğunu gizlətməyib və əməkdaşlıq münasibətləri çərçivəsində Ə.Kərimliyə hər cür maddi yardımları göstərəcəklərini bildirib.

AXCP sədri Ə.Kərimlinin yenidən "Soros" fonduna boyun əyməsi onu göstərir ki, tərəflər aralarında yaranan ziddiyətlərə baxamayaraq eyni mövqedən çıxış etməyə məcbur olublar. Çünki, 2013-cü il prezident seçkiləri ərəfəsi "Soros"un maliyyə dəstəyi ilə yardılan "Milli Şura" C.Sorosun maraqlarının ifadəçisinə çevrilə bilmədi. Bu səbəbdən də, tərəflər arasında ciddi ixtilaflar yarandı ki, nəticədə "Soros" "Milli Şura" ya maliyyə yardımları göstərməkdən imtina etdi. Nəticədə qurum dağılmağa start verdi. Yəni, formalaşmasında iştirak etmiş 129 nəfər "Milli Şura" üzvündən 96 nəfəri boş qazanı taqqıldatmağın mənasız olduğunu dərk etdiklərindən qurumdan istefa verdilər. Ə.Kərimli isə "bəlkə yenidən etimad göstərdilər" arzusu ilə qurumda yedək funksiyasını yerinə yetirən Cəmil Həsənli ilə fəaliyyətini davam etdirdi. Artıq Ə.Kərimlinin gözlədiyi "bəlkə yenidən etimad göstərdilər" məqamı yetişib. "Soros"un İngiltərədəki nümayəndəliyi Ə.Kərimli ilə münasibətləri yenidən qurmağa hazır olduğunu bildirib. Bundan ruhlanan Ə.Kərimli sosial şəbəkələrdə fəallığını artırıb. AXCP sədri şantaj və böhtanlarını əsasən sosial şəbəkələr üzərindən yaratdığı saxta profillər vasitəsi ilə həyata keçirir. Bu isə, ekspertlərində də, qeyd etdiyi siyasi dəllallığın açıq nümunəsidir. Söz yox ki, bu metodda Ə. Kərimlinin uzaqlara hesablanan siyasi oyunlarına yaramayacaq. Bunu hər kəs, o cümlədən AXCP-də təmsil olunan sıravi cəbhəçilərdə aydın şəkildə dərk edirlər.

### Fikrət Hüseynli Əli Kərimliyə qarşı kopramatlarla çıxış edə bilər

"Soros"un İngiltərə nümayəndəliyi



ilə Ə.Kərimli arasında vasitəçilik edən F.Hüseynlinində sona qədər "ağası"na boyun əyəcəyi inandırıcı görünmür. Çünki, F.Hüseynli Ukraynada polis tərəfindən saxlanınanda Ə.Kərimli ona öz dəstəyini nümayiş etdirmədi. Hətta sosial şəbəkələrdə F.Hüseynliyə hüquqi yardım üçün imkanlarının olmadığını bildirməklə dolayısı ilə ondan imtina etdi. Eyni zamanda, Ə.Kərimlinin fəal trollarından hesab olunan Natiq Adilov F.Hüseynliyə 10 ABŞ dolları atıb. Bunu Ə.Kərimlidə bilir. Məsələnin sülh yolu ilə həll edilməsi üçün F.Hüseynli vasitəçilik etməyi xahiş etsədə, Ə.Kərimli bir növ xahişləri qulaqardına vurub. Bu isə şübhəli məqamlar yardır. O mənada ki, 10 min dolların "yuyulması"nda Ə.Kərimlinində rolu ola bilər. Təbii ki, bunlar ehtimallardır, daha dəqiqini Ə.Kərimli özü və vicdanı bilər. Ancaq açıq olan fakt ondan ibarətdir ki, satirik yazar Mirzə Sakit ona çatmalı olan 10 min dolların Ə.Kərimli tərəfindən mənimsənildiyini və vəsaitini geri almaq üçün çox çalışdığını, ancaq nəticə əldə edə bilmədiyini söyləmişdir. Məhz M.Sakitin dilindən səslənən ittihamlardan çıxış edərək demək olar ki, N.Adilovun F.Hüseynlidən alıb, qaytarmadığı pulun müəyyən hissəsinin Ə.Kərimliyə çatması ehtimalları böyükdür. Bütün bu faktları ümumiləşdirərk, qeyd etmək olar ki, Ə.Kərimli partlamamış bombanın üstündə oturub. Hər an əli hər yerdən üzülən və cibləri boş qalan F.Hüseynli 10 min dollar məsələsini və Ə.Kərimlinin "Soros"un İngiltərə nümayəndəliyi ilə münasibətlərinin qurulması üçün vasitəçilik etdiyini söyləyə bilər.

### Cəmiyyət müxalifləri satqın və xəyanətkarlar kimi tanıyır

Faktın açıqlanması Ə.Kərimlinin siyasətdə sonunu gətirə bilər. Bunu Ə.Kərimlinin anlayıb, anlamadığını demək çətin olsada reallıq ondan ibarətdir ki, ağa qara demək, xalqın sevincinə, hakimiyyətin apardığı uğurlu siyasətə qərəzli yanaşmaq onların Ə.Kərimlinin və onun ətrafında olanların tərzidir. Məhz bu amilə görə, cəmiyyətin bütün təqbəqləri onları satqın və xəyanətkarlar kimi tanıyıb, nifrət bəsləyirlər. Dünyanı koronavirus epidemiyası ağuşuna aldığı bir vaxtda da dağıdıcı müxalif üsürlər öz bəd əməllərindən əl çəkmir, infeksiyaya qarşı sərt mübarizə tədbirləri nəticəsində əldə olunan müsbət nəticələrə kölgə salama çalışırlar. Azərbaycan Prezident İlham Əliyev "Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq" deyə bildirməklə dağıdıcı müxalifətin əsl yaramaz simasını cəmiyyətə növbəti dəfə çatdırmışdır. Xalqda preizdenti ilə eyni mövqedən çıxış edərək, müxalifətə öz nifrət və qəzəbini nümayiş etdirir. Ancaq görünən odur ki, müxalifət ictima qınaqdan nəticə çıxarmır. Bu isə bir daha onu göstərir ki, xalqdan ayrı düşüb, gözlərin "Soros"ların cibinə dikən kərimlilərin, hacıluların, həsənlilərin umacaları şər və böhtandan, eləcədə satqınlıqdan yoğrulub.

**İ.ƏLİYEV**

## "Əli Kərimli və Cəmil Həsənli ermənipərəst qüvvələrin maraqlarından çıxış edirlər"

"Xaricdəki erməni və ermənipərəst qüvvələrlə ölkəmizdə cinayətlər törədərək xaricdə qaçıb gizlənən "söyüş müxalifəti"nin üzvləri eyni mövqedən çıxış edirlər". Bunu "Səs" qəzetinə açıqlamasında AXCP sədri Əli Kərimlinin əmisi oğlu, "Azərbaycan fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov deyib.



Onun sözlərinə görə, bəzi məkrli xarici dairələr Azərbaycanın dünyada artan nüfuzundan narahatçılıq keçirlər: "Bu səbəbdən də, çalışırlar ki, müxtəlif vasitələrlə ölkəmizin inkişafına mane olsunlar. Eyni zamanda, ölkəmizin də daxilində öz maraqlarını təmin etməyə çalışan bəzi siyasi qüvvələr var. Məsələn elə götürək AXCP, "Mili Şura", Müsavat kimi partiyaları, onlar pul qazanmaq, maliyyə imkanlarını artırmaq üçün ölkəmizdəki mövcud ictimai siyasi sabitliyi pozmağa cəhd edirlər. Çünki, maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələr onlara belə göstəriş verir və qarşılarında tələb qoyurlar. Ə.Kərimli, C.Həsənli, A. Hacı kimilər heç zaman öz ağılları ilə hərəkət etməyiblər, müstəqil düşüncəyə, qərarlara malik olmayıblar. Onların istiqamətləndirən, təlimatlandıran xarici ağalarıdır".

N.Kərimov onu da bildirdi ki, bəzi müxalif şəxslərin iyulun 14-də parlamentin binasına daxil olaraq, dağıntılar törətmələri, polislərə xəsarətlərə yetirilmələri Ə.Kərimli və C.Həsənlinin uzun müddət hazırladıqları məkrli planın növbəti tərkib hissəsi olmuşdur: "Cinayətkar cəzasız qala bilməz. Azərbaycan hüquq-mühafizə orqanları pozuculuq aktları törədən, şəhərdə asayişi pozmağa çalışan müxalif şəxsləri aşkar edərək, məhkəmə qarşısına çıxarılmalarını təmin edəcək. Təbii ki, həbs edilənlər layiq olduqları cəzanı alacaqlar".

"Azərbaycan fermeri" qəzetinin baş redaktorunun sözlərinə görə, "Milli Şura" və AXCP rəhbərliyinin maraqları xaricdəki erməniperəst qüvvələrlə üst-üstə düşür: "Daxili və xarici qüvvələrin əsas fəaliyyət istiqamətləri Azərbaycanın dünyada artan nüfuzuna xələl gətirməkdir. Sevinc Osmanqızını, Qənimət Zahidi, Arif Məmmədovu və digərlərini də danışdıran, ölkəmizə qarşı şər və böhtanlar səsləndirməyə təhrik edən xarici məkrli dairələrdir. Ancaq xaricdə gizlənib, atributlarımızı sosial şəbəkələr vasitəsi ilə təhqir edənlərdə gec-tez Azərbaycana gətiriləcək, məhkəmə qarşısına çıxarılacaqlar. Bununla belə məkrli qüvvələr anlamalıdırlar ki, onların nə etməsindən və nə istəməsindən asılı olmayaraq həmin qüvvələr heç vaxtı öz məkrli istəklərinə nail ola bilməyəcək. Çünki, bu gün güclü və qüdrətli Azərbaycan dövləti və onun qətiyyətli Prezidenti var".

## Gənc cəbhəçi Əli Kərimlinin "maskasını" yırtdı

*Fuad Əhmədli: "Bir dəfə də olsun adamı polis idarəsinə çağırmasınlar, bir dəfə olsun adama sutkalıq verməsinlər, bir dəfə olsun adama cinayət işi açılmasın"*

Bugünlərdə həbsdən çıxmış AXCP fəalı Fuad Əhmədli hazırkı dövrə qədər onlarla cəbhəçilərdən biridir ki, məhz Əli Kərimlinin güdazına gedərək qanunları pozub. Əbəs deyil ki, hazırkı dövrə qədər bir çox həyatları zəhərlənmiş, təhsilləri, sosial-ictimai həyatları məhv olmuş gənclər Ə.Kərimlini özünə "büt" seçərək, onun əmrləri ilə oturub-durublar, nəticədə də gələcəkləri alt-üst olub.

Lakin o da sirr deyil ki, AXCP sədrinin təsiri altına düşən gənclərin bir çoxu sonradan nə qədər böyük səhvə yol verdiklərinin fərqinə vararaq, ziyanın yarısından geri çəkiliblər. Görünür, həbsdən çıxan və barəsində bəhs etdiyimiz F.Əhmədli də yaxın günlərdə normal, sivil həyata dönmək üçün çabalar göstərmək, sağlam düşüncəli fəaliyyətə üstünlük vermək niyyətində olduğunu gizlətmir. Çünki daha bir fakt budur ki, AXCP sədri yalnız rola girərək bir neçə həbs olunmuş cəbhəçilərin evlərinə gedərək şəkillər çəkdirir, başından eləmək üçün 100-200 manat "yardım" göstərir, bundan sonra isə bəllidir.

Həmin cəbhəçilər bir tullantı kimi kənara atılır, AXCP sədri isə onların adları altında siyasi manipulyasiyalarını davam etdirir, "siyasi məhbus", "vicdan məhbusu" kimi sərsəm fikirləri ilə maddi vəziyyətini yaxşılaşdırmaqla məşğul olur.

### "Nöşün girinc olmuşuq"

### dedikdə isə necə deyərlər, gülləni gözündən vurub

Beləliklə, məsələnin məğzindən kənarlaşmayaraq qayıdaq əsas mətləbə. Məsələ ondadır ki, F.Əhmədli həbsdən çıxar-çıxmaz başda Əli Kərimli olmaqla, AXCP-nin siyasi arenadakı məqsədini açıq-aşkar ifşa etdi. Belə ki, o müsahibə verərkən açıq şəkildə etiraf edib ki, ölkəmizdə heç kim siyasi fəaliyyətinə, sosial şəbəkələrdə yazdığı siyasi fikirlərə görə həbs edilmir: "Təsəvvür edin ki, 7 il partiya sıralarında fəaliyyət göstər, mübarizə apar, radio, köşə yazarlığı sahəsində fəaliyyət göstər, sosial şəbəkələrdə, "facebook"da ictimai-siyasi fəaliyyətlə məşğul ol, özü də aktiv şəkildə bir dəfə də olsun adamı polis idarəsinə çağırmasınlar, bir dəfə olsun adama sutkalıq verməsinlər, bir dəfə olsun adama cinayət işi açılmasın".

Göründüyü kimi, gənc F.Əhmədli birbaşa Ə.Kərimlinin kirli məqsədlərini ifşa edib, üstəlik ölkəmizdə heç kimin siyasi fəaliyyətinə görə, sosial şəbəkələrdəki statuslarına görə həbs edilmədiyini açıqlayıb.

Digər tərəfdən, Fuad Əhmədli "Salyanlılar demişkən, nöşün girinc olmuşuq" dedikdə isə necə deyərlər, gülləni gözündən vurub. O, bu vasitə ilə demək istəyib ki, ümumiyyətlə, cəbhəçi gənclər Ə.Kərimlinin təsiri altına düşməklə yanaşı, necə deyərlər, küyə gedirlər və nəticədə həbs olunurlar. Bax, reallıq da budur ki, F.Əhmədli həmin ifadələri ilə, yəni ikicə cümləsi ilə AXCP-ni və rəhbərliyini ifşa edib, maskasını yırtıb.

**Rövşən RƏSULOV**

# Prezident İlham Əliyev və ailə dəyərləri

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək deyib: "Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır". Vurğulanıb ki, bu gün ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir.***

Dövlət ailə siyasəti Prezident cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu təsdiqini tapır. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafına xüsusi təsir göstərir. Respublikamızda Ailə bayramının qeyd olunması da bu sahədə dövlət siyasətinin əyani təcəssümüdür. Ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması çox vacibdir. Müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümü olan nümunəvi ailələr müəyyənləşdirilir, onlarla görüşlər keçirilir, hədiyyələr təqdim olunur, həyat təcrübələri televiziya və mətbuatda işıqlandırılır. Respublikamızda bütün kateqoriyadan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunur. Burada yaşayan aztəminatlı ailələr, о cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələrinin mənzillə təminatı diqqətdə saxlanılır, onların sosial müdafiəsi gücləndirilir. Gənc ailələrin mənzillə təminatı üçün əlverişli şərait yaradılır. Ailələrin sosial rifahının yaxşılaşdırılması üçün müavinətlər, ünvanlı sosial yardımlar təyin edilir. Hər il respublikamızda istifadəyə verilən onlarla təhsil, səhiyyə və mədəniyyət müəssisələri ailələrə nümunəvi tibbi xidmətin göstərilməsinə, gənclərin savadlı və dünyagörüşlü yetişməsinə, asudə vaxtlarını səmərəli keçirmələrinə xidmət edir.

Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Azərbaycanın iqtisadi imkanlarının artması isə ailələrin rihah halının yüksəlməsi istiqamətində mühüm dövlət proqramları, sosial layihələrin həyata keçirilməsinə şərait yaratmışdır. İmzalanan fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan, xüsusən də həssas kateqoriyalardan ailələrdən olan vətəndaşlarımızın rifah halının yaxşılaşmasına səbəb olmuşdur. Sosial infrastrukturun inkişafı göz önündədir. Nə qədər məktəb, tibb müəssisəsi, idman və gənclər mərkəzləri əsaslı təmir edilib və ya yenidən tikilib. Azərbaycanın inkişafını beynəlxalq reytinq təşkilatları da təsdiq edirlər. Ən mötəbər hesabatlarda Azərbaycanı islahatçı ölkə olaraq irəliləməsi dediklərimizin əyani sübutudur. Açılan iş yerləri, yaradılan müasir infrastruktur, həyata keçirilən sosial islahatlar, vətəndaşların rifah halının yaxşılaşdırırlması ailələrin daha da güclənməsinə gətirib çıxarmışdır. Ana və uşaq ölümünün, küçə uşaqları, erkən nikah və uşaqlara qarşı zorakılıq faktlarının azalması dövlətin apardığı uğurlu siyasətin nəticəsidir.

Hazırda hər bir dövlət COVİD-19 pandemiyası ilə mübarizə aparır və çalışır ki, öz vətəndaşını maksimim ağır vəziyyətdən minimum itkilərlə çıxarsın. Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumətimiz koronavirus infeksiyasının yayılmasının qarşısını almaq, onun iqtisadiyyata və insanların sosial vəziyyətinə vurduğu zərəri qarşılamaq üçün vaxtında çevik və uğurlu tədbirlər hazırlayaraq həyata keçirir. Elə bu layihələrin də əsasında insan, onun rihafı, sosial cəhətdən müdafiəsi dayanır. Cənab Prezident Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradaraq özü və Birinci vitse-prezident bir illk maaşını həmin Fonda köçürdülər. Ümumiyyətlə, cənab İlham Əliyev həm ölkə rəhbəri kimi, həm də bir vətəndaş kimi bu mübarizənin önündə dayanaraq digər ölkə rəhbərlərinə də bir nümünədir.

Dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamı ilə büdcədən dəstək tədbirlərinin icrasına 1 milyard manat, aprelin 17-də isə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. Dövlət sərt karantin tədbirləri nəticəsində qeyri-formal iş yerini itirən və əvvəlcədən işsiz olan şəxslərin sosial rifah halının yaxşılaşdırılması sahəsində də tədbirlər həyata keçirir. Belə ki, hökumət tərəfindən hazırlanmış sosial proqramın bir istiqaməti bu şəxslərə ölkə üzrə yaşayış minimumu səviyyəsində (190 manat) aylıq ödəmənin verildi. Əvəlcə belə ödəmənin 200 min nəfərə verilməsi nəzərdə tutulsa da, Prezident İlham Əliyevin verdiyi tapşırıqla bu say 3 dəfə artırılaraq 600

minə, ödəmələrin sayı isə 2 dəfəyə qaldırıldı. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu il həssas qruplarla bağlı nəzərdə tutulmuş bütün sosial proqramlar, eləcə də sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi ilə bağlı planlar tam icra olunacaq. Xüsusi karantin rejimi bitdikdən sonra şəhid ailələrinə və müharibə əlillərinə yeni mənzillərin verilməsinə başlanacaq, bu il onlara 1500 mənzil verilməsi davam edəcək. Həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi qərara alınıb. Elektrik enerjisindən istifadədə limit artırılıb. Həmçinin,ünvanlı dövlət sosial yardımı proqramının genişləndirilməsi işləri davam edir. Təkcə aprel ayında əlavə olaraq 10 min ailə bu proqramla əhatə olunub, ünvanlı yardım alan ailələrin sayı 80,5 minə (335 min ailə üzvü) çatıb və bu artım dinamikası davam edir. Bununla bərabər, ünvanlı yardımın təyinatı şərtlərinin yumşaldılması, sosial yardımın alınması ilə bağlı müraciət prosedurunun aztəminatlı ailələr üçün daha rahat və sadə olması üçün qanunvericiliyə dəyişiklik layihələri də artıq aidiyyəti üzrə təqdim edilib. Dövlət başçısının tapşırığı ilə ödənişli ictimai işlər proqramı da genişləndirilir - bu işlərə cəlb edilənlərin sayının 2,4 dəfə artırılaraq 37 mindən 90 minə çatdırılması təmin edilir. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti və Onun komandasının çevik hərəkətə keçməsi nəticəsində vaxtında verilən qərarlar və ölkəmizin virus təhlükəsindən izolyasiyası ilə bağlı atılan addımlar nəticəsində ölkəmiz bu gün bizə "demokratiya", "insan hüquqları" dərsi keçməyə çalışan dövlətlərə də nümunə oldu. Təbii ki, bütün bunların arxasında Azərbaycan Prezidentinin Öz xalqına sevgisi və siyasi iradəsi dayanır. Bu danılmaz böyük bir həqiqətdir və bunu da dünya bir daha gördü.

Bu virus və elan olunmuş pandemiya sanki bütövlükdə Yer planetinin əhalisinin bir anlıq dayanaraq ətrafda baş verənlərə nəzər salmaq üçün bir fürsətdir. Əfsuslar olsun ki, sürətli və tepmli həyat bizi ailəmizdən, doğmalarımızdan, hətta özümüzdən uzaqlaşdırdığının fərqində deyilik. Xüsusilə də, vaxt çatışmamazlığı, işlərin çoxluğu səbəbindən bəzən vaildeynlər övladlarına, eləcə də ər-arvad bir-birinə zaman ayıra bilmirlər. Bu günlərdə ənənələrimizin, ailə dəyərlərimizin əsasını təşkil edən saglam ailədaxili münasibətlərin, böyüklərə ehtiram, kiçiklərə qayğı, qarşılıqlı hörmət, ailəyə, adətlərimizə bağlılıq, sevgi, paylaşmaq kimi yüksək dəyərlərin, eyni zamanda, ailə üzvləri ilə birgə vaxt keçirməyin nə qədər önəmli, vacib olduğu bir daha özünü qabarıq şəkildə göstərdi.

Bu çətin günlərdə milli - mənəvi dəyərlərimizin qoruyub saxlanması, yaşadılması olduqca mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, hazırkı durumu həmçinin pozitiv nöqteyi-nəzərdən qiymətləndirərək, insanların evdə keçirəcəyi boş vaxtı da səmərəli dəyərləndirmək mümkündür. Karantin müddətində ailə üzvləri ilə səmərəli ünsiyyət qurmaq, asudə vaxt keçirmək üçün yeni imkanlar yaranır. Biz bu dövrdə sosial təcrid qaydalarına əməl etməklə ailələrə yönəlik, uşaq hüquqlarına aid müxtəlif layihələrə start verdik. Ailənin psixoloji iqliminə, yeniyetmə və gənclərin ailədə şəxsiyyət kimi formalaşmasına təsir edən amillərin müzakirəsi məqsədi ilə "Onlayn psixoloq xidməti" adlı layihəyə start verilib. İlk webinar "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları" mövzusunda keçirilmişdir. Digər layihəmiz isə "Ailələrimizi tanıyaq" adlanır. Layihə çərçivəsində cəmiyyətdə hörmət qazanan, nümunəvi ailələrlə görüşlər keçiriləcək. Layihə çərçivəsində faşizm üzərində qələbənin 75 illik yubileyi ərəfəsində Böyük Vətən Müharibəsi iştirakçısı, Laçın rayonundan məcburi köçkün və hazırda Şəkidə məskunlaşan 108 yaşlı Əhmədov Şahverdi Behbud oğlunun ailəsi ilə keçirilmiş webinar görüşün videoyazısı Komitənin facebook səhifəsinə yerləşdirilmişdir. Dövlət Komitəsi tərəfindən aprelin 6-dan daha bir layihəyə-"Ailəm" müsabiqəsinə start verilmişdir. Müsabiqənin keçirilməsində əsas məqsəd ölkə Prezidenti cənab İlham Əliyevin COVID-19 infeksiyası ilə mübarizə çərçivəsində elan etdiyi "Biz birlikdə güclüyük!" şüarına dəstək olmaq, həmçinin xüsusi karantin rejimi ilə əlaqədar ailələri ev şəraitində asudə vaxtını səmərəli və faydalı keçirməyə stimullaşdırmaqdır.

Həmçinin "Həyati bacarıqlara yiyələn!" , "Uşaqların asudə vaxtının səmərəli təşkili", "Uşaqların internet təhlükəsizliyi və onun təmin olunması yolları", "Uşaq və gənclərin uğurlu ixtisas və peşə seçimi", "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları", "Karantin vəziyyətində sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası", "Uşaqların inkişafında oyunun vacibliyi", "Ailədə uşaqlarla uğurlu ünsiyyət və birgə fəaliyyətin vacibliyi" mövzularda rəsmi "Facebook" səhifəmizdə Komitənin əməkdaşları və dəvət olmuş ekspertlər tərəfindən canlı yayım formasında təlimlər keçirilmişdir. Koronavirusla mübarizə kampaniyası çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "ailələrə zəng" kapmaniyası aparılmış, məlumat vərəqələri paylanılmış, ərzaq yardımı edilmiş, psixoloji yardım edilmiş, tibbi maska paylanılmış, uşaqlar onlayn məşğələ keçirilmişdir.

***Vahid Ömərov f.ü.f.d.dos.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

21 avqust

## Boksçu təzminat tələb edib




**B**oksçu Roy Cons Mayk Taysonla döyüşünün təxirə salındığına görə təşkilatçılardan təzminat tələb edib. SİA-nın məlumatına görə, bu barədə TASS-a idmançının meneceri Zsolt Barna məlumat verib. O, qeyd edib ki, R.Cons sentyabrın 12-də M.Taysonla döyüşməyə tam hazır idi. Lakin rəqibin komandası döyüşü təxirə salmağa qərar verib. Menecer hər iki tərəfin vəkillərinin kompensasiya ilə bağlı qarşılıqlı razılıq üzərində işlədiklərini vurğulayıb. Əvvəl əfsanəvi boksçular Mayk Tayson və Roy Cons arasında döyüşün sentyabrın 12-də keçiriləcəyi planlaşdırılsa da, sonradan mübarizədən əldə olunan gəlirləri artırmaq məqsədilə M.Taysonun komandası döyüşü təxirə salıb. Yeni tarixə görə qarşılaşma noyabrın 28-də baş tutacaq. Döyüş Kaliforniya ştatında keçiriləcək və 8 raunddan ibarət olacaq. Əlli üç yaşlı Mayk Tayson karyerası ərzində 58 döyüş keçirib. Onların 50-də qələbə (44-ü nokautla) qazanan dünya şöhrətli boksçu 6 qarşılaşmadan məğlub ayrılıb. Roy Consun hesabında 47-si nokautla olmaqla 66 qələbə var.

## Çempionlar Liqasında “Bavariya”- PSJ dueli!



***F**utbol üzrə UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinə yekun vurulub. SİA xəbər verir ki, bununla da digər finalçının adına aydınlıq gəlib.*

Həlledici oyuna sonuncu vəsiqə uğrunda Almaniya “Bavariya”sı ilə Fransanın “Olimpik” (Lion) klubları üz-üzə gəlib. Portuqaliyanın paytaxtı Lissabondakı “Estadio Joze Alvalade” stadionunda keçirilən oyunu ispaniyalı referi Antonio Migel Mateu Laos idarə edib. Rəqibini darmadağınla məğlub edən Almaniya çempionu ikinci finalçı olub. Qeyd edək ki, “Bavariya” finalda PSJ ilə qarşılaşacaq. Paris təmsilçisi yarımfinalda Almaniya “Leyptsiq”ini darmadağın edib - 3:0. Həlledici oyun avqustun 23-də baş tutacaq.

## ÇL-in final oyunu ona həvalə olundu

**F**utbol üzrə UEFA Çempionlar Liqasının finalında keçiriləcək PSJ - “Bavariya” oyunu üçün hakim təyinatları açıqlanıb. UEFA-nın rəsmi “Tvitter” səhifəsində yer alan məlumatda deyilir ki, matçın baş hakimi İtaliya Futbol Federasiyasından Daniele Orsato təyin edilib. Ona həmyerliləri Lorenzo Manqanelli



və Alessandro Qallatini köməklik edəcək. Dördüncü hakimin kimliyi barədə isə məlumat verilməyib. Qeyd edək ki, PSJ - “Bavariya” görüşü avqustun 23-cü Bakı vaxtı ilə 23:00-da başlayacaq.

## Serotonin çatışmazlığı depressiv halların yaranmasına səbəb olur

**B**əzən ciddi bir səbəb olmadığı halda belə insan özünü halsız və yorğun hiss edir. Son illər aparılan araşdırmalar bəzi qidaların lazımi miqdarda qəbul edilməsi xoşbəxtlik hisslərinin artdığını ortaya çıxarıb. Bəzi qida məhsulları var ki, onlar təbii antidepressant olaraq orqanizmdə xoşbəxtlik hormonu olan serotonin istehsal edir. Həmin hormon orqanizmdə normal miqdarda olduqda insanın həyata olan həvəsi artır və özünü xoşbəxt hiss edir. Ona görə də ona xoşbəxtlik hormonu adı veriblər.



Həkim-fitoterapevt Elnur Eldaroğlu AZƏRTAC-a deyib: “Aparılan tədqiqatlar göstərir ki, depressiya, miqren, hiperaktivlik, insulinə həssaslıq, hətta kökəlmənin əsasında serotonin dayanır. Serotonin yüksəldikdə və ya həddən artıq olduqda əhval-ruhiyyə də yüksək olur, bununla yanaşı, qeyri-normal və narahat yuxu, iştahanın azalması, ruhi-psixi sağlamlığın yerində olmaması kimi halların yaranmasına səbəb olur. Serotonin çatışmazlığı depressiv halların yaranmasına, kökəlmə və ya anoreksiya, bulimiya kimi qida pozğunluqlarına da səbəb olur.

“Xoşbəxtlik hormonu” kimi tanınan serotonin əvəzolunmayan aminturşu olan triptofandan yaranır. Triptofan isə orqanizmdə sintez olunmadığı üçün onu qidalardan əldə etmək lazımdır. Zülalla zəngin olan qidaların tərkibindəki triptofan beyin toxumasına çox az miqdarda keçir, ancaq karbohidratdakı triptofan çox sürətlə mənimsənilir. Serotonin stress əleyhinə təsir mexanizmi ilə əlaqədar olaraq günün müəyyən vaxtlarında qandakı miqdarı dəyişə bilir”.

Həkimin verdiyi məlumat görə, orqanizmdə serotoninin miqdarına müxtəlif hormonlar təsir edir: “Qadın orqanizmində estrogenin artması serotonin miqdarında yüksəlişə səbəb olur. Aclıq, yorğunluq, stress və dərmanların onun miqdarını aşağı saldığı müəyyən olunub. Məsələn, serotonin azlığı yarananda zülal və vitaminlər immun sistemin müdafiəsində axıradək dayana bilmir.

1 aylığından 1 yaşına qədər olan körpələrdə rast gələnən “qəfləti uşaq ölümü sindromu” və ya “beşikdə ölüm”ün səbəbi serotonin çatışmazlığı ilə əlaqədardır. Onun qarşısını almaq üçün körpəni qarın yox, kürəyi üstə yatırmaq, siqaret tüstüsündən uzaq saxlamaq lazımdır. Stress, qanda şəkərin aşağı olması və menstrual dövrdə estrogen hormonunun aşağı düşməsi serotonin miqdarını azalda, qadınlarda estrogen hormonunun artmasını oksigen, süd, hind quşu əti və şokolad kimi triptofan tərkibli maddələr, mütəmadi məşqlər və idman artıra bilər. Serotonin miqdarını artıran qidalara püstə, çiyələk, banan, üzüm, yeralması, portağal, küncüt, makaron və şokolad aiddir”.

## Gəncədə 21 yaşlı qız dərmandan zəhərlənib



**G**əncədə zəhərlənmə faktı qeydə alınıb. SİA-nın yerli bürosunun məlumatına görə, 1999-cu il təvəllüdlü İlkanə Həsənova zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Dərhal ona lazımi tibbi yardım göstərilib, vəziyyətinin kafi olduğu bildirilir. İlkin məlumata görə, İ.Həsənova sakitləşdirici dərmandan zəhərlənib.

## Evdən məişət əşyaları oğurlayan şəxs yaxalanıb



**G**əncədə oğurluqla məşğul olan şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Baş Cinayət Axtarış və Kəpəz Rayon Polis idarələrinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Gəncə şəhəri ərazisindəki evlərin birindən 2300 manat dəyərində məişət əşyaları oğurlamaqda şübhəli bilinən şəxs, əvvəllər məhkum olunmuş R.Quliyev saxlanılıb. Faktla bağlı araşdırmalar davam etdirilir.

## ELAN

Sabirabad rayonu Şəxsalahlı kənd sakini mərhum Novruzov Vahid Sabir oğlunun adına verilmiş JN-0073 saylı KOD 90923018 nömrəli mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**